RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 130 (9009) ÇƏRŞƏNBƏ, 22 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Azərbaycan-Özbəkistan əlaqələri qardaşlıq və dostluq təməlləri üzərində inkişaf edir




Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

Daşkənd Beynəlxalq Hava Limanında qarşılanma



2

Daşkənddə Müstəqillik abidəsini ziyarət



2

Məhdud tərkibdə görüş



4

Sənəd imzalanma



6

"TEXNOPARK" MMC-nin fəaliyyəti ilə tanışlıq



8

Daşkənddə Heydər Əliyev Meydanının açılış mərasimi



2-3

Rəsmi qarşılanma



4

Geniş tərkibdə görüş



5

Mətbuata birgə bəyanat



7-8



Fəxri qonaqlar xiyabanında ağacəkmə

9

Rəsmi ziyafət



9

# Azərbaycan-Özbəkistan əlaqələri qardaşlıq və

## Daşkənd Beynəlxalq Hava Limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyev Daşkənddə Müstəqillik abidəsini ziyarət edib



İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.







AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Məlumat verildi ki, Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunan "Yangi Uzbekiston" ("Yeni Özbəkistan") kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündəki abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.

Abidə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin tapşırığı ilə layihələndirilib. Bu abidədə Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş verən mühüm hadisələr təsvir edilib. Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülh, azadlıq, xeyirxahlıq və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.

Sonra prezidentlər xatirə şəkli çəkdirdilər.

## Heydər Əliyevin xatirəsinə yüksək ehtiram Özbəkistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə daha bir töhfədir





İyunun 21-də Daşkənddə Heydər Əliyev Meydanının açılışı olub.



AZƏRTAC xəbər verir ki, Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev açılış mərasimində iştirak ediblər.

Meydan paytaxtın Mirabad rayonunda azərbaycanlıların yığcam yaşadıqları ərazidə yerləşir. Ətrafdakı binalar abadlaşdırılıb. Meydanın ərazisi tamamilə yenidən qurulub, burada yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Meydanın mərkəzi hissəsində Ulu Öndər Heydər Əliyevin böyük memorial kompleksi ucaldılıb.

Ümummilli Lider Heydər Əliyevin adını daşıyan küçədə yerləşən meydan şəhər sakinləri və qonaqların istirahət üçün ən çox üz tutduqları yerlərdən biri olacaq.

Özbəkistanın və Azərbaycanın dövlət başçıları mərasimdə çıxış etdilər.

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı



- Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Xanımlar və cənablar.

Bu gün biz bərəkətli Özbəkistan torpağında əziz qonağımız, Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevi salamlayırıq. Dərin rəmzi məna daşıyır ki, Sizin dövlət səfəriniz Azərbaycan xalqının Ümummilli Lideri, Özbəkistanın böyük dostu, hörmətli Heydər Əlirza oğlu Əliyevin şərəfinə onun adını daşıyan küçənin və burada qoyulmuş barelyefin təntənəli açılış mərasimi ilə başlayır.

Biz hamımız tarixə XX əsrin görkəmli siyasi və dövlət xadimi kimi daxil olmuş Heydər Əliyevi yaxşı tanıyırıq. O, bütün həyatını doğma Azərbaycana həsr edib. Ölkə üçün ən ağır illərdə onun taleyinə görə çox böyük məsuliyyəti cəsarətlə öz üzərinə götürüb, müasir dövlətçiliyin əsaslarını yaradıb, Azərbaycanda bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib. O, həqiqətən müstəqil Azərbaycanın memarı idi. Onun qətiyyəti və siyasi iradəsi, zəngin rəhbərlik təcrübəsi və müstəsna liderlik keyfiyyətləri gənc, müstəqil dövləti xilas etdi. Dərin məna daşıyan faktdır ki, iyunun 15-i Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd edilir. Məhz həmin gün Heydər Əliyev ölkə rəhbərliyinə qayıdıb və Azərbaycan Ali Sovetinin Sədri seçilib.

Fikrimcə, bizim ölkələrimizin müstəqilliyini bərpa etməsi ərəfəsində onların tarixinin çətin səhifələrini xatırlamaq burada yerinə düşər. Xalqlarımız çətin, bəzən faciəli dövrlər yaşamalı olub. Bununla belə həm özbək, həm də Azərbaycan xalqları öz mənəvi dəyərlərini, milli qürur və mənliyini qoruyub saxlayıb, öz gələcəklərini özlərinin qurması hüququnu saxlayıblar. Çoxdan gözlənilən azadlığa doğru keçdiyimiz keşməkeşli yolu qiymətləndirərək inamla demək olar ki, xalqlarımızın müstəqilliyi və suverenliyi bizə baha başa gəlib. Azadlığın qiyməti həmişə nəsillərin taleyi, həyatı, onların inamı və vicdanı olub. Əldə edilmiş milli müstəqilliyi bu gün də layiqincə qiymətləndirmək, onu hərtərəfli möhkəmləndirmək və sonrakı nəsillərə çatdırmaq bizim müqəddəs borcumuzdur. Bu gün biz tarixin dərslərini nəzərə almaqla Heydər Əlirza oğlu Əliyevin nadir şəxsiyyətinə bir daha dərin ehtiramımızı bildiririk. Bir an və əbədiyyət öz aralarında ayrılmaz şəkildə bağlı olduğu kimi, Heydər Əliyevi də Azərbaycan xalqının tarixindən və onun həyatından ayırmaq olmaz.

Heydər Əliyev böyük Səməd Vurğunun ölməz misralarını tez-tez təkrarlayardı: "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!" Buna görə də Heydər Əliyevin adı və obrazı bütün dünyada Azərbaycan xalqına xas olan bütün xeyirxah və nəcib keyfiyyətlərin rəmzi kimi qəbul edilir.

Ölkə həyatının ən dramatik dövründə Prezident seçilmiş Heydər Əliyev sülhə və sabitliyə, vətəndaş həmrəyliyinə nail oldu, bir çox onillik irəlicədən müasir Azərbaycanın inkişaf vektorunun əsasını qoydu, iqtisadiyyatı, elmi, təhsili əsaslı şəkildə irəlilədə bildi, milli dəyərlərin dirçəldilməsinə, Azərbaycan xalqının tolerantlıq ənənələrinin möhkəmlənməsinə şərait yaratdı. Nisbətən qısa müddətdə ölkədə yeni sahələr yaradıldı, onlarca iri zavod və fabrik tikildi, yüzlərlə məktəb, kitabxana, mədəniyyət sarayı və muzeylər açıldı. Azərbaycan sürətlə inkişaf etməyə başladı, demokratik hüquqi dövlət quruculuğu yoluna qədəm qoyaraq beynəlxalq arenada layiqli yer tutdu, yüksək nüfuz və hörmət qazandı.

Heydər Əliyev əsl vətənpərvər idi. Onun adının özü rəmzi məna daşıyır. Məlum olduğu kimi, Heydər "bələdçi" deməkdir. O, həqiqətən öz xalqının bələdçisi, lideri idi. O, öz fəaliyyətində böyük şair və mütəfəkkir Nizami Gəncəvinin müdrik sözlərinə istinad edərək həmişə deyirdi: "Doğma torpağa sevgini özümə borc bilirəm". Bu, onun həyatının mənası idi. Onun ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olması idi. Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlu Əliyev tarixi ədaləti bərpa edərək bu arzunu uğurla həyata keçirdi.

Bütün bu illər ərzində Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb. Biz mümkün olan hər yerdə bu barədə danışmışıq, həmişə bunu qətiyyətlə və sərt şəkildə dəstəkləmişik. Bu Qələbə münasibətilə qardaş Azərbaycan xalqını özbək xalqı adından və şəxsən öz adımdan bir daha səmimi-qəlbdən təbrik edirəm.

Heydər Əliyevin fəaliyyətini, onun sanballı şəxsiyyətini və böyük irsini dünyanın müxtəlif ölkələrinin görkəmli siyasətçiləri və ictimai xadimləri yüksək qiymətləndirirlər.

Hörmətli mərasim iştirakçıları, bizim ölkələrimiz arasında dostluq münasibətlərinin, iki xalqın tarixi əlaqələrinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük töhfəsini xüsusi qeyd etmək istərdim. Onunla Özbəkistanın rəhbərləri Şərəf Rəşidoviç Rəşidov, daha sonra İslam Abduqəniyeviç Kərimov arasında etimada əsaslanan səmimi münasibətlər yaranmışdı. Bizim liderlər arasında dostluq iki ölkənin və iki qardaş xalqın sıx qarşılıqlı əlaqə saxlamasına, fəal mübadilələri, o cümlədən humanitar mübadilələri inkişaf etdirməsinə imkan verib. Azərbaycan xalqının Ümummilli Lideri özbək xalqına həmişə böyük hörmətlə yanaşırdı. Hərtərəfli savadlı və əsl ziyalı insan olan Heydər Əliyev bizim tariximizə, mədəniyyətimizə və ənənələrimizə səmimi heyranlığını bildirirdi. Məsələn, 1996-cı ildə Daşkənddə olarkən, Heydər Əliyev Teymurilər Tarixi Muzeyini ziyarət edərək Fəxri qonaqlar kitabında yazdığı qeyddə xüsusi olaraq vurğulamışdı: "Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə Özbəkistan xalqı çox sağ olsun". Bu, yüksək mənəviyyat və müdriklik təzahürüdür.

Son illərdə bizim birgə səylərimiz sayəsində Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb, konkret məzmun kəsb edib. Hörmətli İlham Heydər oğlu, Sizə, xüsusən ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli möhkəmlənməsinə şəxsi diqqətinizə görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, Sizin dövlət səfəriniz qarşılıqlı faydalı əlaqələrimizin daha da inkişafına yeni güclü təkan verəcək.

Əziz dostlar, bu gün Azərbaycanın Ümummilli Liderinin xoş adını xatırlayaraq, böyük özbək şairi Həmid Alimcanın sözlərini sitat gətirmək istəyirəm: "İnsanın xatirəsi yaşadıqca, o da yaşayır". Əminəm ki, bu sözlər həm Özbəkistanda, həm də Azərbaycanda qəbul edilir. Əminəm ki, dahi insana və vətənpərvərə, qurucu şəxsiyyətə, bu gün həm Azərbaycanda, həm də Özbəkistanda gənclərin örnək hesab etdiyi Heydər Əlirza oğlu Əliyevə həsr edilmiş bu memorial kompleks ölkələrimizin və xalqlarımızın sarsılmaz dostluğunun parlaq simvolu olacaq, bizim doğma Özbəkistanın sakinləri və qonaqları üçün ziyarətgaha çevriləcək. Bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Biz bu səfərə çoxdan hazırlaşırdıq. Obyektiv səbəblər olub, pandemiya olub. Demək istəyirəm ki, İlham Heydər oğlu pandemiyadan sonra ilk rəsmi səfərini məhz Özbəkistana edir. Bu, çox rəmzi məna daşıyır. Bir daha demək istəyirəm: "Özbəkistana xoş gəlmisiniz".

Bu gün Özbəkistanın bütün sakinləri, bütün xalq Sizi gözləyir. Fikrimcə, bu səfər həqiqətən tarixi səfər olacaq. Əlbəttə, bu gün biz hər şey haqqında söhbət edəcəyik. Bu, bizim qarşılıqlı münasibətlərimizə böyük təkan verəcək və gələcəkdə biz öz münasibətlərimizi tamamilə başqa səviyyəyə çatdıracağıq, ona görə ki, biz buna çoxdan hazırlaşırdıq. Cənab Prezident, Özbəkistana xoş gəlmisiniz.

İndi isə sözü məmnuniyyətlə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə verirəm.

# dostluq təməlləri üzərində inkişaf edir

## Heydər Əliyevin xatirəsinə yüksək ehtiram Özbəkistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə daha bir töhfədir

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

İlk növbədə qardaş Özbəkistana səfərə dəvətə görə Şavkat Miromonoviçə dərin təşəkkürümü bildirmək istərdim. Şavkat Miromonoviçin qeyd etdiyi kimi, pandemiya ilə əlaqədar mən özümün bütün rəsmi səfərlərimi dayandırdım, iki ildən artıq müddətdə rəsmi səfərlər etmədim. Pandemiya ilə bağlı vəziyyət imkan verəndən sonra mən ilk rəsmi səfərimi qardaş Özbəkistana edirəm. Bu, bizim münasibətlərimizin təzahürü, xalqlarımızın qardaşlığının və dostluğunun təzahürüdür.

Əziz qardaşım Şavkat Miromonoviçin bu təşəbbüsünə, Daşkəndin mərkəzində atam Heydər Əliyevin xatirəsinə həsr edilmiş belə gözəl guşə yaradılmasına görə ona çox təşəkkür edirəm. Küçə, meydan, barelyef, gözəl park - bunlar Azərbaycan xalqının böyük Liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətidir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, çox təşəkkür edirik və bunu özbək qardaşlarımızın bizim Ulu Öndərə, ortaq tariximizə həqiqətən qardaşcasına münasibəti hesab edirik. Bu həm də Heydər Əliyevin bütün həyatını həsr etdiyi bütün Azərbaycan xalqına hörmətdir. Mən atam haqqında səmimi sözlərinə görə Şavkat Miromonoviçə çox təşəkkür edirəm. O, bizim Liderimizi çox sanballı və dəqiq səciyyələndirdi. Heydər Əliyev bütün həyatını Azərbaycana xidmətə həsr edib. Sovet dönəmində də, müstəqillik dövründə də həmişə xalqın yanında olub. Ən ağır dövrdə, xalqımız təcavüzə, təqiblərə məruz qaldığı vaxtlarda o, həmişə xalqın yanında olub. 1990-cı il yanvarın 20-də, Sovet İttifaqının parçalanmasından hələ iki il əvvəl o, sovet ordusunun Bakıya yeridilməsi, Azərbaycanın yüzlərlə günahsız vətəndaşının öldürülməsi və yaralanması ilə əlaqədar sovet rəhbərliyini açıq pisləmişdi. Bu, böyük siyasi əzmkarlıq tələb edirdi. Ona görə ki, o vaxt Sovet İttifaqının tarixə qovuşacağına hələ nə qədər qaldığı məlum deyildi. O, bunu etdi. Ən çətin dövrdə, Naxçıvan Muxtar Respublikası təcavüzə məruz qalanda da o, öz xalqının yanında idi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən əslində o, Azərbaycanın bu tarixi hissəsini, qədim torpağını təcavüzdən müdafiə etdi. Yenə onun təşəbbüsü ilə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı məhz Naxçıvanda, Sovet İttifaqı dağılandan və Azərbaycan öz müstəqilliyini bərpa edəndən xeyli əvvəl dövlət bayrağı kimi rəsmən qəbul edilib.



Vətəndaş müharibəsi dövründə xalqın iradəsi ilə məhz Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsini dayandırdı və ölkəmizi inkişaf yoluna çıxartdı. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, islahatlar, inkişaf - bütün bunlar onun adı ilə bağlıdır və biz fəxr edirik ki, onun işini davam etdiririk. Vəfatından bir qədər əvvəl öz siyasi vəsiyyətində Azərbaycan xalqına müraciətlə demişdi: "Mənim edə bilmədiklərimi mənim davamçılarım edəcəklər". Biz, onun davamçıları fəxr edirik ki, onun bütün vəsiyyətlərini həyata keçirmişik və ilk növbədə tarixi ədaləti bərpa etmişik, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişik.

Şavkat Miromonoviçin düzgün olaraq qeyd etdiyi kimi, Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı. Onun oğlu kimi, canlı şahid kimi təsdiq edə bilərəm ki, 1970-ci illərdə də onun Şərəf Rəşidoviç Rəşidov ilə dostluğu bütün sovet rəhbərliyinə məlum idi, 1990-cı illərdə də onun İslam Abduqəniyeviç Kərimov ilə dostluğu da xalqlarımıza məlum idi və bu, bizim münasibətlərimizin bugünkü inkişafının təməli idi. Şavkat Miromonoviç ilə biz də bu şanlı estafeti davam etdiririk. Biz xalqlarımızı inkişaf yolu ilə və sıx qarşılıqlı fəaliyyət yolu ilə aparırıq.

Mənim bugünkü dövlət səfərim təkcə bizim niyyətlərimizin təsdiqi deyil, həm də qardaşlıq, dostluq münasibətlərimizin möhkəm təməlinin təsdiqidir. Özbəkistanda Heydər Əliyevin özbək xalqına, Özbəkistana münasibətini çox yaxşı bilirlər. Bu gün biz mənim qardaşım Şavkat Miromonoviçin rəhbərliyi ilə Özbəkistanı müstəqil xarici siyasət kursu yürüdən, öz resurslarına güvənən, sosial-iqtisadi inkişafda böyük uğurlar qazanmış qüdrətli müstəqil dövlət kimi görməyə çox şadıq. Şavkat Miromonoviçin rəhbərliyi ilə Özbəkistanın müstəqilliyinin, müdafiə qabiliyyətinin, iqtisadi potensialının möhkəmlənməsi, sosial məsələlərin həlli, şəhərsalma sahələrində necə böyük uğurlar qazandığını görmək üçün son 5-6 ilə aid statistik rəqəmlərə baxmaq kifayətdir. Biz bütün bunları görürük və dostlar, qardaşlar kimi bütün bunlara görə sevinirik.

Mən Heydər Əliyevin xatirəsinə belə yüksək münasibətə görə bütün Azərbaycan xalqı adından bir daha ilk növbədə Özbəkistan Prezidentinə, qardaş özbək xalqına təşəkkürümü bildirmək istərdim. Biz Azərbaycanda bunu yüksək qiymətləndiririk və heç vaxt unutmayacağıq. Bu, Özbəkistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə daha bir töhfədir. Yaşasın Özbəkistan və Azərbaycan birliyi, qardaşlığı!

Sonra Özbəkistanın İstedadlı gənclərə dəstək üzrə Uluqbəy adına Respublika Fondunun rəhbəri, akademik **Akil SƏLİMOV** çıxış edərək dedi:



- Hörmətli Azərbaycan Prezidenti İlham Heydər oğlu.

Hörmətli Özbəkistan Prezidenti Şavkat Miromonoviç.

Əziz qonaqlar, bu gün bu gözəl meydanda və bütün Özbəkistanda sevinc dolu yüksək əhvali-ruhiyyə hökm sürür. Buraya toplaşanların hamısı tarixi hadisədə - paytaxtımızda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin şərəfinə yenilənmiş küçənin və abidənin təntənəli açılışında iştirak edirlər. Yaxşı yadımdadır, hələ 1970-ci illərdə Azərbaycan və Özbəkistan, Heydər Əliyev və Şərəf Rəşidoviç birbaşa, möhkəm əlaqələr yaratmağa çalışırdılar. İki respublika arasında dostluq körpüləri qururdu. Əlbəttə, bu nəcib işə bu böyük insanların qarşılıqlı anlaşması, səmimi dostluğu şərait yaradırdı. Bu halda onlar, heç şübhəsiz, xalqlarımızın çoxəsrlik, əsl qardaşlıq münasibətlərinə arxalanırdılar.

İlk dəfə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda "Özbəkistan günləri" keçirildi. Deməliyəm ki, bu, həqiqətən cəsarətli addım idi, axı həmin dövrdə bütün qərarlar yalnız mərkəzdə qəbul edilirdi. Bakıda bizim respublikanın nümayəndə heyətini təntənəli şəkildə, böyük hörmət və ehtiramla qarşıladılar. "Özbəkistan günləri" keçirilən bütün həftə ərzində Heydər Əliyev çox məşğul olmasına baxmayaraq daim bizimlə birlikdə idi. Ona görə ki, Heydər Əliyev özbək xalqını, özbək mədəniyyətini, özbək incəsənətini çox sevirdi.

Sonrakı dövrdə respublikalarımız arasında mədəniyyət və incəsənət günlərinin keçirildiyini qeyd edən akademik Akil Səlimov bu tədbirlərin xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin daha da inkişafına mühüm töhfələr verdiyini vurğulayaraq bildirdi:

- Bu forumların sayəsində xalqlarımız daha da yaxınlaşdı, bənzərsiz melodiyalar və mahnılar, bir-birimizin zəngin mədəni irsi daha çox sevildi. Daşkənddə xalqlar dostluğuna həsr edilmiş konsertdə Özbəkistanın Xalq artisti Batır Zakirov tamaşaçıların xahişi ilə Azərbaycan haqqında, Bakı və Azərbaycan insanları haqqında mahnını dörd dəfə ifa etdi. Bu, iki xalq arasında dostluğun hərtərəfli möhkəmlənməsində Heydər Əliyevin görkəmli tarixi xidmətlərinin ən yüksək səviyyədə etiraf edilməsinin rəmzidir. Bu, bizim sarsılmaz qardaşlıq əlaqələrimizin, inkişaf etməkdə olan strateji tərəfdaşlığımızın, ümumi gələcək nailiyyətlərimizin rəmzidir.

Hazırda xalqlarımızın böyük qurucu qüvvəsi yeni Azərbaycanda və yeni Özbəkistanda həyata keçirilən geniş, əsaslı dəyişiklərdə xüsusilə parlaq şəkildə təzahür edir. Bu gün iki dövlət başçısı - möhtərəm İlham Heydər oğlu Əliyev və hörmətli Şavkat Miromonoviç Mirziyoyev bizim ikitərəfli əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə çatdırıblar və dostluğumuzu yeni mühüm konkret işlərlə təsdiqləyirlər. Qoy bu sarsılmaz dostluq məşəli ölkələrimizin və xalqlarımızın rifahı naminə daim şölələsin!

Yaşasın Azərbaycan və Özbəkistan!

❖ ❖ ❖

Mirabad rayonunun Temiryolçilar məhəllə komitəsinin sədri **Mehriban RƏHİMOVA** çıxış edərək dedi:



- Əssəlamunaleykum hörmətli Şavkat Miromonoviç.

Xoş gördük Sizi, hörmətli İlham Heydər oğlu.

Siz bizim gözəl vətənimiz Özbəkistana xoş gəlmisiniz. Mən Özbəkistanın azərbaycanlı övladı Mehriban Ziyadxan qızı Azərbaycanın Şəki rayonunda doğulmuşam. On doqquz yaşımda Özbəkistana gəldim. Mən 41 ildir bu gözəl ölkədə yaşayıram. Mənə xalqım hörmət edib, bu məhəllədə sədr seçib və 15 ildir məhəllə komitəsinin sədriyəm.

M.Rəhimova təmsil etdiyi məhəllədə 3500-dən çox əhalinin yaşadığını, onların 70 faizinin azərbaycanlı olduğunu vurğulayıb. Özbəkistanda doğma Vətəndəki kimi yaşadıqlarını vurğulayan M.Rəhimova burada insana diqqət və qayğının, millətlərarası dostluğun dövlət siyasətinə çevrildiyini bildirib, azərbaycanlıların bu gözəl diyarda özlərini xoşbəxt hiss etdiklərini deyib:

- Mən anayam. Analar həm öz övladlarının, həm də bütün dünyanın xalqlarının dincliyini, xoşbəxtliyini daim Allahdan arzu edirlər. Canım Özbəkistandır, ana canım Azərbaycandır, hər ikisini eyni dərəcədə sevirəm. Əziz Prezidentimiz Şavkat Miromonoviç, Siz bizlərə bu gözəl bağı, babamız, atamız Heydər Əliyevin abidəsini bəxş etdiniz. Bu, Özbəkistanda yaşayan biz azərbaycanlılara olan böyük mükafatdır, hədiyyədir. Buna görə Sizə təşəkkür edirik.

Yaşasın Azərbaycan-Özbəkistan dostluğu! Bizim dostluğumuz əbədi olsun!

❖ ❖ ❖

Özbəkistan Yazıçılar Birliyinin üzvü, əslən Şuşadan olan **Əli NƏZƏRLİ** əməyinin yüksək qiymətləndirildiyini, Özbəkistanın "Dostluq" ordeni ilə təltif olunduğunu vurğulayaraq dedi:

- Özbəkistanda yaşayan 41 min azərbaycanlının 3 min nəfəri mənim yaşadığım Sırdərya vilayətində yaşayır. Yeni Özbəkistanın böyük gələcəyi üçün hamımız birlikdə səmimi-qəlbdən çalışırıq. Mən bir yaradıcı şəxs kimi bildirmək istəyirəm ki, bizim dostluq və qardaşlıq ənənələrimizin tarixi kökləri çox qədimdir. Bunu klassik şairlərimizin, alimlərimizin əsərlərində, onların bir-biri ilə münasibətlərində aydın görmək olar. Uzağa getməyək, astronomiya elminin dahisi Mirzə Uluqbəyin ən sevimli şagirdi Əli Quşçu azərbaycanlı olub. Möhtərəm Ümummilli Lider Heydər Əliyevin yurddaşı, Azərbaycanın böyük dramaturqu Hüseyn Cavid hələ 1925-ci ildə "Əmir Teymur" dramını yazıb.

Azərbaycan Prezidentinin səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açdığını vurğulayan Ə.Nəzərli dedi:



- Hörmətli Şavkat Miromonoviç.

Hörməli İlham Heydəroğlu.

Bu gün Özbəkistan-Azərbaycan münasibətləri yeni bir mərhələyə qədəm qoydu. Əlaqələrimizə yeni nəfəs, yeni ruh verildi. Bu ruhun adı yüksəliş ruhudur. Mən inanıram ki, bu yüksəliş ruhu bu iki dövləti çox yaxın zamanlarda dünyanın ən tərəqqi edən dövlətlərinin qatarına qoşacaq.

Hörmətli Şavkat Miromonoviç.

Mən bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsinin, bu parkın açılışı bizim üçün fəxrdir. Bu yer bizim üçün dostluq və qardaşlıq məkanıdır. Əminəm ki, burada dostluğa və qardaşlığa xidmət edən əsərlər yaranacaq. Mən Sizə bunun üçün dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan, Özbəkistan,
Bir ürəkdir, bir candır.
İkisi də bizim üçün
Əziz, doğma məkandır.

Yaşasın azərbaycanlıların və özbəklərin qardaşlığı, dostluğu!

❖ ❖ ❖

Dövlət başçıları memorial kompleksin açılışını etdilər.

Daha sonra Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev memorial kompleksin önünə gül dəstələri qoydular.





# Azərbaycan-Özbəkistan əlaqələri qardaşlıq və

## Azərbaycan Prezidenti İlham Əliyevin Daşkənddə rəsmi qarşılanma mərasimi olub









İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Özbəkistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.





Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Özbəkistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Şavkat Mirziyoyevə təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları əvvəlcə birgə foto çəkdirdilər.





# dostluq təməlləri üzərində inkişaf edir

# Bu tarixi səfər iki ölkə arasında münasibətlərə yeni təkan verəcək



İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış ediblər.

## Prezident Şavkat Mirziyoyevin çıxışı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri. Sizi və Azərbaycan nümayəndə heyətini bir daha ürəkdən salamlayıram. Vurğulayım ki, Sizin hazırkı səfəriniz ikitərəfli münasibətlərimizin tarixində vacib əlamətdar hadisədir. Özbəkistana xoş gəlmisiniz.

Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır. Ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir ki, bu barədə bu gün biz məhdud tərkibdə keçirilən görüşdə çox ətraflı danışdıq. Biz Azərbaycanın sanballı uğurlarına Özbəkistanda həmişə ürəkdən sevinirik. Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır. Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir. Biz bu nəcib işə öz töhfəmizi verməyə şad olarıq, bu barədə də məhdud tərkibdə keçirilən görüşdə danışdıq.

Hörmətli görüş iştirakçıları, İlham Heydər oğlu ilə keçirilən məhdud tərkibdə, məhdud formatlı bugünkü görüşdə fikrimcə, biz ikitərəfli münasibətlərimizin bütün məsələləri barədə çox əyani, açıq, səmimi söhbət etdik, hətta hansı istiqamətlər üzrə real nəticə olması üçün nə etməli və necə etməli olmağımız barədə danışdıq. Əlbəttə, son illər biz etimada əsaslanan dialoqumuzu və praktiki əlaqələrimizi əhəmiyyətli dərəcədə fəallaşdırmışıq. Bu gün mühüm siyasi sənəd - Strateji tərəfdaşlığın genişləndirilməsi və hərtərəfli əməkdaşlığın artırılması haqqında Bəyannamə qəbul olunacaq. Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində sıx əlaqələrimiz mövcuddur. Biz ticarətdə, sənayedə, kooperasiyada dinamik artım müşahidə edirik. Biz yalnız bu gün bu barədə tənqidi, ciddi danışdıq, qeyd etdik ki, əslində, əmtəə dövriyyəsi 6 dəfə artıb, lakin bu barədə tənqidi fikirləşməyə dəyər və biz bu məsələləri çox ciddi təhlil etdik. Birgə müəssisələrin sayı 4 dəfə artıb. Uğurlu əlamətdar layihələr arasında Hacıqabulda avtomobillərin birgə istehsalının təşkilini və ipəkçilik sahəsində kooperasiyanı qeyd etmək olar. Lakin göstəricilər hələ çox cüzidir və iqtisadiyyatlarımızın bir-birini qarşılıqlı tamamlayan amillərinin mövcud böyük potensialından istifadə etməyin zəruri olduğunu göstərir.

Bizim görüşümüz ərəfəsində səmərəli biznes-forum keçirilib, yarım milyard dollardan yuxarı həcmdə investisiya sazişləri və ticarət müqavilələri paketi imzalanıb. Onların arasında neft-qaz, neft-kimya sahələrində, energetika, əczaçılıq, tikinti materialları istehsalı, şərabçılıq, yeyinti, toxuculuq məhsullarının və zərgərlik məmulatlarının istehsalı üzrə perspektiv layihələr mövcuddur. Ələt Azad İqtisadi Zonasının bazasında sonradan Avropa İttifaqı bazarlarına çıxmaqla layihələrin icrası üçün imkan var.

Həmçinin razılığa gəldik ki, layihələrin icrası üçün birgə investisiya fondu yaradılacaq, artıq növbəti ayda onların sürətli həlli üzrə proqram tədbirlərinin qəbul edilməsi üçün hökumətlərarası komissiyanın iclası təşkil olunacaq.

Hörmətli nümayəndə heyətinin üzvləri, nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığımız strateji xarakter daşıyır. Biz Azərbaycanın müasir nəqliyyat şəbəkəsindən, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, yük daşımalarını bundan sonra da artırmaq niyyətindəyik. Bu, xüsusən ərzaq və sənaye mallarının tranziti məsələlərinə aiddir.

Eyni zamanda indiki reallıqlar alternativ dəhlizlərin formalaşmasını tələb edir. Bu baxımdan Özbəkistan-Qırğızıstan-Çin və Termez-Məzari-Şərif-Kabil-Pişəvər dəmir yollarının tikintisi gələcəkdə ölkələrimizin Asiya-Sakit okean regionu və Cənubi Asiya dövlətlərinin 3 milyarddan çox istehlakçısı olan bazarlarına ən qısa yolla çıxışı təmin etməyə imkan verəcək. Biz bu istiqamətdə birinci dərəcəli məsələlərin həlli üçün nəqliyyat nazirlərinin rəhbərliyi ilə işçi qrupu yaratmaq barədə razılaşdıq. Biz həm də xarici işlər nazirlərinin rəhbərliyi ilə işçi qrupu yaratmaq barədə razılığa gəldik. Biz bu məsələləri uzatmırıq, ilk görüş gələn ay Daşkənddə olacaq. Əlbəttə, nəqliyyat nazirləri, investisiya və iqtisadiyyat nazirləri xarici işlər nazirlərinin himayədarlığı ilə işləyəcəklər. Fikrimcə, ona görə ki, bizim çox ciddi niyyətlərimiz var.

Kənd təsərrüfatında kooperasiyanın gücləndirilməsini çox vacib hesab edirəm. Söhbət ipək istehsalı üzrə klaster yaradılmasından, pambıqçılıq sahəsində layihələrdən, innovasiya araşdırmalarının tətbiqindən gedir. Bizim nazirlər bu günlərdə bütün perspektiv istiqamətlər üzrə yol xəritəsini razılaşdırmalı və vaxt var ikən öz təkliflərini verməlidirlər.

Çoxplanlı əməkdaşlığın genişlənməsində birbaşa regionlararası əlaqələrə mühüm rol ayrılır. Biz razılaşdıq ki, ən yaxın vaxtlarda paytaxtlarımız və iri şəhərlərimiz tərəfdaşlıq münasibətləri quracaqlar. Bu gün baza sazişi imzalanacaq. Bundan əlavə, bu il Daşkənddə regionların birinci forumunu və onların sənaye potensialı sərgisini keçirməyi təklif edirik.

Humanitar məsələlərdə mütəmadi olaraq qarşılıqlı Mədəniyyət və Kino Günləri keçirmək, ali məktəblər, elmi müəssisələr, idman və gənclər təşkilatları arasında mübadilələri və əlaqələri genişləndirmək lazımdır. İşgüzar və humanitar əlaqələrin möhkəmlənməsi turizm sahəsində əməkdaşlığın genişlənməsinə şərait yaradacaq. Azərbaycan Prezidentinin turizm üzrə ayrıca proqram qəbul edilməsinə xüsusi diqqətinə, bu təklifi dəstəkləməsinə görə ona minnətdaram. Bu il birgə Özbəkistan-Azərbaycan turizm yarmarkası keçirilməsini təklif edirik. Biz çox zəngin mədəni irs abidələrimizin bərpası və qorunub saxlanması sahəsində sıx qarşılıqlı faydalı əməkdaşlığı da inkişaf etdirməyə hazırıq.

Bundan əlavə, bu gün hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində mühüm sənəd qəbul ediləcək. Müdafiə nazirləri artıq bu gün bizim bu sazişlərin reallaşdırılması üzrə birinci dərəcəli addımları müəyyən etməlidirlər.

Hörmətli İlham Heydər oğlu, hörmətli nümayəndə heyətinin üzvləri. Bir daha vurğulamaq istərdim ki, ölkələrimiz çox böyük potensiala malikdir. Bu gün biz məhdud tərkibdə görüşdə bütün istiqamətlər üzrə potensiallarımızı bir daha çox ətraflı müzakirə etdik və hökumətlərarası komissiyaların həmsədrlərinə və ya sədrlərinə tapşırıqlar verdik ki, ən yaxın vaxtda, bu ilin noyabrında Səmərqənddə keçiriləcək görüşə qədər real nəticə olsun. Ən başlıcası, biz qarşılıqlı münasibətlərimizin müsbət təcrübəsini qazanaq. Nümayəndə heyətinin bütün üzvlərinə demək istəyirəm ki, indiyə qədər bizim bu cür etimada əsaslanan açıq söhbətimiz olmayıb. Bu gün biz çox səmimi formada açıq etiraf etdik ki, çox böyük imkanlarımız var, lakin təəssüf ki, nəticələr azdır. Bu nəticələr onu göstərir ki, İlham Heydər oğlunun tarixi səfəri özlüyündə bizim münasibətlərə yeni təkan verməlidir. Mən bizim bugünkü danışıqlardan tam razıyam, çünki istəyirdim ki, bu görüş tarixi olsun - bu, həqiqətən tarixidir, bu mənada ki, bizim qarşılıqlı münasibətlərimizin böyük potensialında böyük iz qoyacaq və bu, real nəticə olacaq.

İlham Heydər oğlu, Sizi Özbəkistanda bir daha salamlayıram və məmnuniyyətlə sözü Sizə verirəm.

## Prezident İlham Əliyevin çıxışı

- Sağ olun, hörmətli Şavkat Miromonoviç, hörmətli özbək qardaşlar.

İlk növbədə qonaqpərvərliyə və dəvətə görə bir daha təşəkkür etmək istərdim. Mən qardaş Özbəkistana səfər etməyimə və gələcək qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərini Sizinlə müzakirə etmək imkanına malik olduğuma görə çox şadam. Bu səfər həqiqətən tarixi səfərdir. Mən Şavkat Miromonoviçin çıxışında qeyd etdiyi istiqamətlər üzrə onun fikirləri ilə tamamilə şərikəm. Biz münasibətlərimizin gələcək hərtərəfli inkişafının əsasını qoyuruq. Dünən və bu gün bizim həyat fəaliyyətimizin demək olar ki, bütün mühüm sahələrini əhatə edən 20-yə yaxın sənəd imzalanıb və imzalanacaq. Bir də, əlbəttə, siyasi sənəd - bizim inkişafımızın çox illər əvvəlcədən istiqamətini müəyyən edən birgə Bəyannamə.

Qarşılıqlı iqtisadi fəaliyyət məsələlərinə gəldikdə mən Şavkat Miromonoviçin dedikləri ilə həmrəyəm. Biz əlaqələrimizi intensivləşdirməliyik. Nazirlərə müvafiq tapşırıqlar verilib. Əminəm ki, hər bir istiqamət - iqtisadi qarşılıqlı fəaliyyət, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat-logistika sferası, energetika üzrə yaxşı nəticələr olacaq. Biz, iki Prezident qərara aldıq ki, tapşırıqlarımızın yerinə yetirilməsini özümüz nəzarətdə saxlayacağıq və müvafiq nazirliklər müntəzəm surətdə irəliləyiş barədə bizə məruzə edəcəklər. Bu yolla biz ticari-iqtisadi sahədə və təkcə bu sahədə deyil, ciddi tərəqqiyə nail ola bilərik. Ona görə ki, bu gün biz qarşılıqlı beynəlxalq fəaliyyətin mühüm məsələlərini müzakirə etdik və əlbəttə, bütün beynəlxalq strukturlarda daimi qarşılıqlı dəstəyi böyük məmnunluqla qeyd edirik. Şavkat Miromonoviç bizim əməkdaşlıq etdiyimiz təşkilatlar barədə danışdı. Biz həqiqətən dostlar, qardaşlar kimi əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik.

Mən həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəklədiyinizə görə ayrıca təşəkkürümü bildirmək istərdim. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi və mən Azərbaycan Prezidenti kimi qardaşım Şavkat Miromonoviçin qardaşlıq dəstəyini həmişə hiss edirdim. Bu, bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir.

Əlbəttə, dünyadakı vəziyyət nəzərə alınmaqla hər bir ölkə müdafiə qabiliyyətini möhkəmlətməyə çalışmalıdır. Bu gün Şavkat Miromonoviç ilə dialoqumuzun bir hissəsi bu məsələyə həsr edilib. Müvafiq tapşırıqlar verilib. Düşünürəm ki, hərbi əməkdaşlıq, hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əməkdaşlıq istiqamətində əlavə addımlar atılacaq. Mənim fikrimcə, bu sahədə də qarşılıqlı fəaliyyətimiz möhkəmlənəcək, çünki həm Özbəkistanda, həm də Azərbaycanda elə mövzular var ki, onları müzakirə etmək lazımdır, kənar təhdidlər var, ölkələrimiz və xalqlarımız onlarla üzləşməli olurlar. Buna görə də düşünürəm ki, bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət həmişəkindən daha vacib olacaq.

Azərbaycanda ipəkçiliyin inkişafı ilə bağlı məsələlərin operativ həllinə görə Şavkat Miromonoviçə təşəkkür edirəm. Mən dəstək üçün müraciət edəndə dərhal kömək göstərildi və bu, həmin sahəni inkişaf yoluna çıxarmaq üçün addımlar atmağımıza imkan verdi. Biz bu gün həm də kənd təsərrüfatı fəaliyyətinin başqa istiqamətləri ilə bağlı məsələləri müzakirə etdik. Əminəm ki, bu istiqamətlər üzrə də mühüm uğurlar əldə ediləcək. Əlbəttə, mən səfərdən əvvəl də, səfər çərçivəsində də Özbəkistanın bugünkü sənaye potensialı haqqında çox eşitmişəm. Bu gün sənaye potensialı, onun bir hissəsi ilə texnoparkda tanış olmaq imkanı olacaq. Əminəm ki, bu, müştərək layihələrin praktiki reallaşdırılması baxımından da bizim kooperasiyamız üçün çox vacibdir. Qarşılıqlı ünsiyyət çərçivəsində görürük ki, artıq yaxşı elementlər var. Konkret olaraq Hacıqabulda avtomobil zavodu. Mənə bu gün deyildi ki, avtomobil istehsalı nomenklaturunu genişləndirmək və istehsal edilən avtomobillərin sayını artırmaq planlaşdırılır. Özbəkistan haqlı olaraq bu müəssisə ilə fəxr edə bilər. Bilirəm ki, Özbəkistanda belə müəssisələr az deyil.

Qarabağın bərpası işində qardaş köməyinə görə, Prezident Şavkat Miromonoviçin işğaldan azad edilmiş Füzuli şəhərində hədiyyə kimi məktəb tikmək qərarına görə də ayrıca təşəkkürümü bildirmək istərdim. İşlər artıq başlanıb və növbəti tədris ilinə qədər məktəbin istifadəyə verilməsi planlaşdırılır. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, bizə verilmiş ilk belə böyük hədiyyədir. Biz Qarabağı hələlik öz gücümüzlə bərpa edirik. Əlbəttə, qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir. Ona görə ki, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra biz Şavkat Miromonoviçlə görüşəndə o, belə bir təşəbbüs irəli sürdü və bu təklif minnətdarlıqla qəbul edildi. Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq, yüzilliklər boyu Azərbaycan xalqının xatirində qalacaq.

Mən Şavkat Miromonoviçin apardığı islahatları - Özbəkistanın investisiya baxımından cəlbediciliyinin, sənaye potensialının artırılması, sosial məsələlərin həlli üzrə apardığı islahatları çox yüksək qiymətləndirirəm. Biz müxtəlif beynəlxalq tədbirlər çərçivəsində, o cümlədən Bakıda da dəfələrlə görüşmüşük, fikir mübadiləsi aparmışıq. Əlbəttə, Özbəkistan kimi müsbət demoqrafik dinamikaya malik olan ölkə bu təhdidlərin öhdəsindən gəlir. Sənaye istehsalı, iş yerləri, xalqın sosial rifahı - bütün bu mövzular daim Prezidentin diqqət mərkəzindədir və Azərbaycanda biz də, əminəm ki, Özbəkistan sakinləri də bu istiqamətlərdə böyük nailiyyətlər, böyük tərəqqi görürlər. Biz buna şadıq. Biz dostlar kimi, qardaşlar kimi Sizin uğurlarınıza sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək. Biz də, əlbəttə, öz tərəfimizdən qarşılıqlı fəaliyyətimizi genişləndirmək üçün səy göstərəcəyik. Biz bu gün çox mövzular barədə ətraflı söhbət etdik. Ən başlıcası odur ki, bütün tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik.

Qonaqpərvərliyə görə bir daha sağ olun. Ümidvaram ki, bu gün də, sabah da Sizinlə bu fəal, səmərəli dialoqu davam etdirəcəyik.

❖❖❖

**Prezident Şavkat MİRZİYOYEV:** Bir daha sağ olun, İlham Heydər oğlu. Özbəkistanda son illərdə aparılmış islahatlara qiymət verildi. Əlbəttə, biz indi çox mürəkkəb dövrdə yaşayırıq və bu mürəkkəb dövrdə biz bir-birimizi tapmalıyıq.

# Azərbaycan-Özbəkistan əlaqələri qardaşlıq və

## Azərbaycan-Özbəkistan sənədləri imzalanıb







**İyunun 21-də Daşkənddə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzaladılar.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Məşğulluq və Əmək Münasibətləri Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Özbəkistanın məşğulluq və əmək münasibətləri naziri Nozim Xusanov imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Özbəkistan Respublikasının İnnovativ İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın innovativ inkişaf naziri İbroxim Abduraxmonov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Özbəkistanın Karantin və Bitkilərin Mühafizəsi Agentliyinin baş direktoru İbrahim İrqaşev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın ədliyyə naziri Ruslanbek Davletov imzaladılar.







"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın nəqliyyat naziri İlxam Maxkamov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Özbəkistanın müdafiə naziri Baxodir Kurbanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2022-2024-cü illər üzrə əməkdaşlıq Proqramı"nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistanın xarici işlər nazirinin vəzifələrini icra edən Vladimir Norov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında regionlararası əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın Baş nazirinin müavini, investisiyalar və xarici ticarət naziri Sardor Umurzakov imzaladılar.

# dostluq təməlləri üzərində inkişaf edir

# Özbəkistan Prezidentinin qələbəmiz münasibətilə təbrikləri Azərbaycanda dost sözü, qardaş sözü kimi qəbul edilir

İyunun 21-də Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Özbəkistan dövlətinin başçısı bəyanatla çıxış edib.





## Prezident Şavkat Mirziyoyevin bəyanatı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər Özbəkistan torpağında bir daha səmimiyyətlə salamlamaq istəyirəm. Özbəkistana bir daha xoş gəlmisiniz.

Özbəkistanda Azərbaycan ilə ənənəvi dostluq, etimad və qarşılıqlı anlaşma münasibətlərinə xüsusi qiymət verirlər. Bu münasibətlərin əsasını ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyətlər və dil təşkil edir. Xalqlarımızı çoxəsrlik tarix bağlayır. Əhməd Fərqaninin və Əbu Reyhan Biruninin elmi əsərlərində Azərbaycanın bir çox şəhərləri xatırlanır, bu şəhərlərdə Şərq və Qərb sivilizasiyaları bir-birinə qarşılıqlı təsir göstərir. Bizim Şərqşünaslıq İnstitutunun fondlarında Nizami, Xaqani, Tusi, Füzuli, Xətai və bir çox başqa Azərbaycan şairlərinin və mütəfəkkirlərinin onlarca nadir əlyazmaları qayğı ilə qorunub saxlanır. Füzulinin əlyazmalarından birini mən bu gün hörmətli İlham Heydər oğluna hədiyyə etdim. Fikrimcə, bu, bizim sərvətimizdir. Özbəkistanda belə əlyazmalar çoxdur. Bu, bir daha onu göstərir ki, özbək xalqı əsrlər boyu Azərbaycan mədəniyyətinə böyük hörmət və maraq bəsləyir. Xüsusi qeyd etmək istəyirəm ki, özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvai böyük Nizami Gəncəvinin əsərlərindən ilham alırdı, Nizamini "şairlərin şahı" adlandırırdı. O, Nizamiyə belə qiymət verirdi.

İki xalqın qarşılıqlı münasibətlərinin şanlı tarixi bizim günlərdə də çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək üçün möhkəm təməl yaradıb. Rəmzi haldır ki, budəfəki səfər Azərbaycanın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin ölkəmizə birinci rəsmi səfərindən düz 25 il sonra keçirilir. Bu gün bizim əziz qonağımız hörmətli Prezidentlə birlikdə Heydər Əliyevin adını daşıyan yenilənmiş küçəni və orada qoyulmuş abidəni açmaq məndən ötrü böyük şərəf oldu. Bu, öz xalqının həqiqi liderinə və Özbəkistanın yaxın dostu olmuş dahi insanın xatirəsinə bizim ehtiramımızın əlamətidir.

Hörmətli jurnalistlər, məhdud tərkibdə və geniş formatda görüşlərdə biz ikitərəfli münasibətlərimizə aid məsələləri ətraflı müzakirə etdik. Sizə demək istəyirəm ki, biz bütün istiqamətlər üzrə çox səmimi, etimada əsaslanmaqla, çox diqqətlə, obrazlı desək, əlimizə qələm götürərək münasibətlərimizi bundan sonra necə irəlilətməli olduğumuzu dedik ki, bu münasibətlər həqiqətən strateji səviyyəyə çatsın və İlham Heydər oğlunun Özbəkistana bugünkü tarixi səfərindən real nəticə əldə edilsin. Fikrimcə, geniş tərkibdə görüşdə də bizim nümayəndə heyətlərinin hər bir üzvünə nə istədiyimiz, necə işləyəcəyimiz barədə ətraflı məlumat verildi və biz razılığa gəldik ki, iki prezident hər ay işlərin gedişini yoxlayacaq. Ona görə ki, bizim hökumətlərarası komissiyaların sədrləri, həmsədrləri hər ay fikir mübadiləsi aparacaqlar. Biz hətta razılığa gəldik ki, başlanğıc mərhələdə həmsədrlər ayda bir dəfə görüşəcək, real nəticə olması üçün vəziyyəti yoxlayacaqlar. Biz bunu nə üçün edirik? Ona görə ki, biz həqiqətən münasibətlərimizi tamamilə yeni səviyyəyə qaldırırıq. Bunu nə üçün edirik? İstəyirik ki, real nəticə olsun, iki ölkənin xalqları bunu hiss etsin.

Fikrimcə, bizim ümumi səylərimiz və daha yaxınlaşma istəyimiz sayəsində Özbəkistan ilə Azərbaycan arasında münasibətlər açıq, geniş əhatəli xarakter kəsb edib, ticari-iqtisadi, parlamentlərarası, mədəni-humanitar və regionlararası əməkdaşlıq fəallaşıb. Bir daha demək istəyirəm, budəfəki danışıqlar göstərdi ki, biz xalqlarımızın mənafeyi naminə qarşılıqlı fəaliyyəti bundan sonra da hərtərəfli möhkəmləndirməyə hazırıq.

Siz indicə sanballı sənədlər paketinin imzalanmasının şahidi oldunuz. Onların arasında Strateji tərəfdaşlığın dərinləşməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə Bəyannamə ikitərəfli münasibətlərdə yeni mərhələ açır. Biz həmçinin qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini müəyyən etdik. Bizim ən mühüm prioritetimiz ticarəti və sənaye kooperasiyasını genişləndirməkdir. Bu istiqamətdə ciddi irəliləyişlər müşahidə edirik.

Bu gün biz razılaşdıq ki, komandalarımızın və ya nümayəndə heyətlərimizin hazırladığı rəqəmlər üzərində dayanmayacağıq, çünki rəqəmlər heç nə demir. Əlbəttə, mən deyə bilərəm ki, onlar altı dəfə artıb, lakin məcmu halda onlar bizim münasibətlərimizə, imkanlarımıza uyğun gəlmirsə və deyiriksə ki, sıfırdan başlayaq, çox real, bütün istiqamətlərdə, iqtisadiyyatımızın bütün sahələrində geniş əhatəli layihələri inkişaf etdirəcəyik. Bir daha demək istəyirəm, biz qarşılıqlı fəaliyyətimizi əsaslı şəkildə fəallaşdırmaq barədə razılığa gəldik. Bundan ötrü bizim geniş imkanlarımız, hər şeydən əvvəl iqtisadiyyatlarımızın qarşılıqlı tamamlanması amili var. Bu ərəfədə keçirilmiş biznes-forumun yekunlarına əsasən yarım milyard dollardan artıq məbləğdə sazişlər və kontraktlar imzalanıb. Əlbəttə, yarım milyard rəqəmi nəyəsə dəlalət edir, lakin o, bizim imkanlarımıza müvafiq deyil.

Kooperasiya layihələrinə xüsusi diqqət yetiriləcək. Bildiyiniz kimi, biz Hacıqabulda avtomobillərin birgə istehsalını uğurla nizamlamışıq. İpəkçilik sahəsində əməkdaşlığı inkişaf etdiririk. Avtomobilqayırma üzrə razılığa gəldik ki, yeni istiqamətlər üzrə buraxılışı genişləndirəcəyik, ona görə ki, bizim artıq təcrübəmiz, tam qarşılıqlı anlaşma və tam etimad var. Biz dedik ki, bu sahəni hər iki tərəfdən dəstəkləyəcəyik. Hasilat, neft kimyası, əczaçılıq, tikinti materialları və hazır tekstil malları, qida məhsulları, zərgərlik məmulatları istehsalı və şərabçılıq sahələrində onlarca yeni layihə üzərində işləyirik. Bu məqsədlə artıq cari ildə birgə investisiya fondunu işə salmaq barədə razılığa gəldik. Biz həmçinin hökumətlərarası birgə komissiyaya sənaye kooperasiyası proqramını qəbul etməyi tapşırdıq.

Digər strateji istiqamət nəqliyyat kommunikasiyalarının inkişafıdır. Bu gün o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu ilə yükdaşımaların həcmi artır. Biz yeni dəhlizləri inkişaf etdirmək, multimodal daşımaları artırmaq, ölkələrimizin nəqliyyat müəssisələri üçün əlverişli şərait yaratmaq barədə razılığa gəldik. İqlimlə bağlı təhdidlərin və ərzaq təhlükəsizliyi problemlərinin artması fonunda biz kənd təsərrüfatı sahəsində daha sıx işləmək niyyətindəyik. Elmi və innovasiya araşdırmalarını fəal surətdə bölüşəcək, aqrosektorun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyəti nizamlayacaq, investisiya layihələrini həyata keçirəcəyik. Kənd təsərrüfatında konkret olaraq hansı sahələrdə işləmək və hansı sahələrin daha tez nəticə verməsi, hansı istiqamətlərdə bir-birimizi tamamlamaq barədə də razılaşdıq. Azərbaycanda kənd təsərrüfatında rəqəmsallaşma çox inkişaf edib və biz dedik ki, kənd təsərrüfatında rəqəmsallaşmanın bu təcrübəsini öyrənmək bizim üçün çox faydalı olardı.

Danışıqlarda regionlararası əlaqələrin fəallaşdırılmasına xüsusi diqqət yetirilib. Bu gün bizim şəhərlər və regionlar arasında birbaşa əlaqələr üçün geniş imkanlar yaradan saziş imzalanıb. Regionların birinci forumunu keçirməyi, ilk növbədə ticarət, innovasiyalar, mədəniyyət, turizm sahələrində sıx əlaqələr yaratmağı planlaşdırırıq. Mədəni-humanitar sahədə də bizi qədimdən bağlayan ümumi cəhətlər çoxdur. Özbəkistanda Azərbaycan muğamını, Azərbaycanda isə bizim məqamları nəinki məmnuniyyətlə dinləyir, həm də ifa edirlər. Azərbaycan və özbək estradası hər iki ölkədə çox populyardır. Biz azərbaycanlı dostlarımıza təşəkkür edirik ki, bu yaxınlarda Bakıda Əlişir Nəvainin məşhur ədəbiyyatşünas Ramiz Əsgər tərəfindən tərcümə edilmiş onlarca kitabı nəşr edilib. Özbəkistanda da Azərbaycan klassiklərinin və müasir yazıçılarının əsərləri müntəzəm olaraq nəşr edilir. Bu günlərdə Daşkənddə Azərbaycanın Xalq yazıçısı Anarın yeni kitabının təqdimatı keçirilib. Hörmətli İlham Heydər oğlu ilə danışıqlar zamanı biz qarşılıqlı mədəniyyət və kino günlərinin keçirilməsi, humanitar və turizm mübadiləsi proqramının fəal inkişafı barədə razılığa gəldik.

Biz həmçinin beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi apardıq, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində planlar cızdıq. Birləşmiş Millətlər Təşkilatı və Türk Dövlətləri Təşkilatı, MDB, ATƏT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində dialoqun konstruktiv xarakterini və qarşılıqlı dəstəyin vacibliyini qeyd etdik.

Əziz dostlar, Azərbaycan Prezidentinin tarixi dövlət səfərinin yekunları həqiqətən sıçrayış xarakteri daşıyır. Bu gün mən qardaşım İlham Heydər oğlu ilə birlikdə bütün şərtləri formalaşdırdıq ki, gələcəkdə real nəticə alınsın, dediyim kimi, Sizin tarixi səfəriniz həqiqətən bizim strateji tərəfdaşlığımıza uyğun olsun. Biz strateji tərəfdaşlığın dərinləşməsi haqqında danışırıq. Deyirik ki, bizim bütün komanda, bütün nazirliklərimiz işə tamam başqa cür yanaşsınlar. Səmimi demək istəyirəm ki, bugünkü danışıqlardan çox məmnunam. Biz məhdud və geniş tərkibdə görüşlərdə qaldırılan bütün məsələlər barədə çox ətraflı danışdıq. Qeyd etdik ki, həm beynəlxalq, həm də regionlararası siyasətdə ikitərəfli qarşılıqlı anlaşma və ümumi yanaşmalar mövcuddur. Biz ikitərəfli münasibətlərimizə xüsusilə böyük diqqət ayırdıq.

Beləliklə, bir daha demək istəyirəm, biz hər şeyi edirik ki, güclü Özbəkistan və güclü Azərbaycan olsun. Onlar güclü olanda məcbur edəcəyik ki, bizə hörmət etsinlər və bundan ötrü bizim hər cür əsasımız var. Belə ki, bu səfər tarixi səfərdir, onun çox yaxşı əsası var və gələcəkdə biz bu əsası həyata keçirməliyik. Sizə bir daha demək istəyirəm, biz razılığa gəldik ki, noyabr ayında İlham Heydər oğlu Səmərqəndə səfər edəcək. Səmərqənddə biz nazirlərimizi bugünkü razılaşmalar barədə dinləyəcəyik. Bunu nəyə görə deyirəm? Ona görə ki, bilirsiniz, bizim çox böyük imkanlarımız var, lakin nəticə çox kiçikdir. Biz bu gün gələcək əməkdaşlığımızın ciddi perspektiv layihələri barədə razılığa gəldik. Fikrimcə, bu səfər tarixi səfərdir və danışıqlarımızdan tamamilə məmnunam. Diqqətinizə görə təşəkkür edirəm, indi isə sözü məmnuniyyətlə İlham Heydər oğluna verirəm.

❖ ❖ ❖

Sonra Azərbaycan dövlətinin başçısı bəyanatla çıxış edib.

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Şavkat Miromonoviç, icazə verin, dəvətə, mənə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirim. Qardaş Özbəkistan torpağında olmaq, ikitərəfli münasibətlərin geniş spektrini və xarici siyasət gündəliyində duran mühüm məsələləri Sizinlə müzakirə etmək fürsətinə malik olmaq mənə çox xoşdur.

Bu gün mənim səfərim çox əlamətdar hadisədən - Daşkəndin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsinin, onun adını daşıyan meydanın və gözəl parkın açılışından başlandı. Şavkat Miromonoviç, mən Sizə atamın xatirəsinə belə münasibətə görə Azərbaycan Prezidenti kimi, Heydər Əliyevin oğlu kimi öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Biz bunu çox yüksək dəyərləndiririk. Biz gördük ki, Özbəkistanda Heydər Əliyevin xatirəsi necə sevgi ilə, necə hörmətlə yad edilir, bu, bizə çox xoşdur. Bu gün biz abidənin və meydanın açılışında çıxış etdik, Heydər Əliyev haqqında, onun Özbəkistana münasibəti haqqında danışdıq. Əminəm ki, bu gün bu münasibəti hər bir azərbaycanlı bölüşür. Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir. Səfər pandemiya ilə əlaqədar təxirə salınmışdı. Həmçinin onu diqqətlə hazırlamaq lazım idi ki, qardaşım Şavkat Miromonoviçin dediyi kimi, sıçrayış edək. Fikrimcə, bu, həqiqətən sıçrayış xarakterli səfərdir. Çünki müzakirə olunan mövzuların həm mahiyyətinə, həm formasına, həm məzmununa, bizim gəldiyimiz qərarlara əsasən bu səfər və razılaşmalar münasibətlərimizin gələcək inkişafı üçün əsas olacaq.

Dünən biznes-forum çərçivəsində xeyli sənəd imzalanıb. Bu gün belə sənədlərin ümumi sayı iyirmiyə yaxındır. Şavkat Miromonoviçin dediyi kimi, Strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə çox qlobal xarakter daşıyır. Bu, mahiyyətcə gələcək fəaliyyətimizin yol xəritəsidir. Orada xarici siyasətimizin prioritetləri əksini tapıb, dövlətlərimizin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub, eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilib. Bu gün burada artıq bir neçə saat bir yerdə keçirdikdən sonra işləyəcəyimiz istiqamətləri daha da konkretləşdirdik. Tapşırıqlar verilib. Şavkat Miromonoviç artıq bu barədə ətraflı danışdı, mən həyat fəaliyyətinin müzakirə etdiyimiz istiqamətlərini təkrarlamaq istəmirəm. Əminəm ki, nəticələr olacaq. Çünki bu, prezidentlərin nəzarətindədir. Əminəm, müvafiq nazirlər, dövlət strukturlarının rəhbərləri yaxşı başa düşürlər ki, biz prezidentlər qarşıya qoyduğumuz məsələlərin yerinə yetirilməsinə nəzarət edəcək və onlardan cavab istəyəcəyik. Bu məsələlərin icrası isə ona gətirib çıxaracaq ki, ölkələrimiz arasında münasibətlər daha möhkəm olacaq, aramızda daha çox əməkdaşlıq və qarşılıqlı dəstək olacaq. Çünki bu gün Xəzər, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarının sülhə və sabitliyə ehtiyacı var. Bunun əsası, əlbəttə ki, liderlərin siyasi iradəsi, eləcə də iqtisadi zəminlərdir. Fikrimcə, bu gün əmtəə dövriyyəsinin artırılması, investisiya layihələri, nəqliyyat-logistika istiqamətləri, kənd təsərrüfatında əməkdaşlığın dərinləşməsi ilə bağlı layihələr barəsində əldə etdiyimiz razılaşmalar - bütün bunlar həm əmtəə dövriyyəsinin artırılması, həm də ölkələrimiz və xalqlarımız arasında daha artıq əməkdaşlıq üçün gözəl imkanlar yaradacaq.

Hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlığı xüsusi qeyd etmək istərdim. Bu sahə hər bir ölkə üçün, xüsusən bizim ölkələr üçün prioritet əhəmiyyət kəsb edir. Bizim yerləşdiyimiz regionlar təhlükəsizliyin və müdafiə qabiliyyətinin möhkəmlənməsi məsələlərinə gündəlik diqqət tələb edir. Buna görə də düşünürəm ki, bu gün razılığa gəldiyimiz məsələlər yerinə yetiriləcək. Biz təcrübə mübadiləsi, hərbi-texniki sahədə, müdafiə istiqamətli təhsil sahəsində əməkdaşlıq üzrə fəal əlaqə saxlayacaq, həmçinin təhlükəsizliyimizi qarşılıqlı möhkəmlədəcək addımlarımızı planlaşdıracağıq.

Bu gün bəyannamə imzalandı. Siyasi bəyannamə mahiyyət etibarilə bizim münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdırır. Təbii ki, qarşılıqlı dəstək də olacaq - həm mövcud beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkələrimizin və xalqlarımızın təhlükəsizliyi ilə bağlı bütün başqa məsələlər daimi diqqət tələb edir. Bu da olacaq. Ona görə ki, bundan ötrü siyasi iradə var.

Bu gün mən biz ərazi bütövlüyümüzü bərpa edərkən özbək xalqının və Özbəkistan Prezidentinin Azərbaycana göstərdiyi dəstəyi xüsusi qeyd etmək istərdim. Azərbaycanlılar bunu çox yaxşı bilir, qardaşlıq münasibətini xatırlayır və yüksək qiymətləndirirlər. Özbəkistan Prezidentinin sözləri, bizim Qələbəmiz münasibətilə təbrikləri - bütün bunlar, təbii ki, Azərbaycanda dost sözü, qardaş sözü kimi qəbul edilir. Biz bunu yüksək qiymətləndiririk və öz tərəfimizdən biz də bütün məsələlərdə Özbəkistanın, özbək xalqının yanındayıq. Bugünkü səfər buna daha bir sübutdur. Əslində, biz bu gün iqtisadi qarşılıqlı fəaliyyət, biznes strukturlarının əlaqələri, təhlükəsizlik, müdafiə qabiliyyəti ilə bağlı məsələlər, xarici siyasətlə bağlı təşəbbüslər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, humanitar sahə ilə, mədəniyyətlə bağlı məsələlər barədə danışırıq, yəni sözün geniş mənasında bu gün bizim gələcək aktiv qarşılıqlı fəaliyyətimizin əsası qoyulur və əminəm ki, nəzərdə tutduqlarımızın hamısı yerinə yetiriləcək.

Çıxışımın sonunda qardaş özbək xalqını qazanılmış bütün nailiyyətlər münasibətilə bir daha təbrik etmək istərdim. Biz Özbəkistanda baş verənləri diqqətlə izləyirik. Sizin uğurlarınıza sevinirik. Sevinirik ki, Şavkat Miromonoviçin başladığı islahatlar artıq nəticə verir. Aydındır ki, belə fundamental islahatlar üçün vaxt lazımdır. Lakin qısa müddətdə əldə edilənlər əvvəla, Prezidentin iradəsindən xəbər verir, göstərir ki, özbək xalqı bu təşəbbüsləri dəstəkləyir və həmin təşəbbüslər nəticə verir. Bu, təkcə statistikada görünmür, əminəm ki, Daşkəndi ziyarət edən hər kəs bunu görür. Mən Daşkənddə əvvəllər olmuşam və bugünkü dəyişiklikləri görəndə ürəkdən sevinirəm ki, qardaş ölkə uğurla inkişaf edir, burada sülh, asayiş, sabitlik, iqtidarla cəmiyyətin vəhdəti mövcuddur - bunlar hər bir dövlətin inkişafı üçün əsas amillərdir. Əlbəttə, Prezidenti təbrik etmək istərdim ki, onun nəzərdə tutduğu işlərin hamısı yerinə yetirilir və əminəm ki, tamamilə yerinə yetiriləcək. Bu nailiyyətlər münasibətilə qardaş özbək xalqını da təbrik edirəm. Həmçinin əminəm ki, bu gün iki Prezidentin öz nümayəndə heyətlərinə verdiyi bütün tapşırıqlar yerinə yetiriləcək. Əlbəttə, onlar bilirlər ki, tələb ciddi olacaq, biz ciddi nəzarətçilərik, səhvləri bağışlamayacağıq, amma yaxşı nəticələr olsa, onları tərifləməyə şad olarıq.

Hörmətli Şavkat Miromonoviç, belə xoş münasibətə, qonaqpərvərliyə görə bir daha sağ olun, qardaş özbək xalqına firavanlıq, bundan sonra da inkişaf arzu edirəm. Sağ olun.

*Ardı 8-ci səh.*

# Azərbaycan-Özbəkistan əlaqələri qardaşlıq və

## Özbəkistan Prezidentinin qələbəmiz münasibətilə təbrikləri Azərbaycanda dost sözü, qardaş sözü kimi qəbul edilir



*Əvvəli 7-ci səh.*

**Prezident Şavkat MİRZİYOYEV:** İlham Heydər oğlu, bizim islahatları bu cür dəstəklədiyinizə görə bir daha çox sağ olun. Əlbəttə, bizim bugünkü razılaşmalarımız onu göstərir ki, biz bugünkü nailiyyətlərimizi gələcəkdə real həyata tətbiq edəcəyik. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bu gün görülən bütün işlər iki xalqın rifahı naminədir. Biz çox gərgin dövrdə yaşayırıq. Əlbəttə, bu gün hər bir ölkə sabahkı gün barədə düşünür və Siz düzgün olaraq dediniz ki, bu gün xalq bizim Özbəkistanda həyata keçirdiyimiz islahatlara etibar edir və əlbəttə, bu islahatların böyük perspektivi var. Bu cür qısa müddətdə heç bir ölkədə belə nəticələrə nail olmaq mümkün deyil. Bununla əlaqədar biz öz dostlarımızla, o cümlədən Azərbaycanla elə münasibətlər qurmaq istəyirik ki, həqiqətən strateji istiqamətləri ehtiva etsin. Azərbaycanda İlham Əliyevin rəhbərliyi ilə islahatlar sahəsində çox iş görülüb. Əlbəttə, biz də bunu görür və yaxın qonşular kimi həmişə sevinirik. Biz də Siz başda olmaqla Azərbaycan xalqına arzu edirik ki, hər şey reallaşsın və bizim dost ölkəmiz olan Azərbaycan firavanlaşsın.

Bir daha demək istəyirəm, biz öz komandamıza bunu həqiqətən qəti şəkildə dedik ki, nəticələr çox ciddi olacaq. İlham Heydər oğlunun dediyi kimi,



həm cəzalandıracaq, həm də həvəsləndirəcəyik. Nəyə görə? Ona görə ki, bilirsiniz, bu gün biz ümumiyyətlə öz imkanlarımız və bizim bugünkü əməkdaşlığımızın vəziyyəti barədə çox diqqətlə, çox etimadla, açıq danışdıq. Bilirsiniz, elə bir istiqamət yoxdur ki, o istiqamətdə biz əməkdaşlıq edə bilməyək və orada nəticə olmasın. Sadəcə bu gün iki Prezidentin möhkəm siyasi iradəsi var və bu gün biz iki Prezidentin həmin iradəsini bizim komandanın məsuliyyətinə əlavə etdik. Düşünürəm ki, komandanın üzvləri, həm Özbəkistan, həm də Azərbaycan tərəfinin nümayəndə heyətinin üzvləri düzgün nəticələr çıxaracaq və dediyim kimi, Səmərqənddə görüş tarixi, nəticəli görüş olacaq. Nəticə necə olacaq? Biz öz qarşılıqlı münasibətlərimizi genişləndirməli və həqiqətən yeni platforma, yeni istiqamətlər yaratmalıyıq. İlham Heydər oğlunun dediyi kimi, bu yol xəritəsi real həyata keçirilməlidir. Biz həmin xəritəni tamamlayanda və bir-birimizi başa düşəndə bu, bizim gələcək münasibətlərimizin rəhni olacaq. Əgər biz yol xəritəsini tamamlasaq və düzgün yol xəritəsi qəbul etsək, 2023-cü il nəticəli il olacaq. Düşünürəm ki, gələcək görüşlərimizdə bu nəticə göz qabağında olacaq.

İlham Heydər oğlunu və bütün Azərbaycan xalqını bir daha səmimi-qəlbdən salamlamaq və uğurlar arzu etmək istəyirəm.

# Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev Daşkənddə "TEXNOPARK" MMC-nin fəaliyyəti ilə tanış olublar







İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə "TEXNOPARK" MMC-nin fəaliyyəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına "TEXNOPARK" barədə məlumat verildi. Bildirildi ki, "TEXNOPARK" MMC 2019-cu ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə yaranıb. "TEXNOPARK" yüksək texnologiyalı, rəqabətqabiliyyətli, ixracyönümlü və idxalı əvəz edən sənaye məhsullarının istehsalını təmin etmək məqsədilə yaradılıb. "TEXNOPARK" MMC-nin sahəsi 103 hektardan artıqdır.

Dövlətimizin başçısı burada istehsal olunan sənaye, texniki, elektron, inşaat və məişət məhsullarına baxdı.





Bildirildi ki, tərəfdaşları dünyanın aparıcı şirkətləri olan "TEXNOPARK" MMC-nin fəaliyyəti, eyni zamanda geniş çeşiddə məişət texnikası istehsalı üzrə müəssisələrin, həmçinin yeni iş yerlərinin yaradılmasına yönəlib. Hazırda burada 13 istehsal obyekti fəaliyyət göstərir. Bunların sırasına lift, eskalator, elektron qaz sayğacları, məişət soyuducuları, sənaye kondisionerləri, soyutma sistemləri, paltaryuyan maşın və digərləri daxildir. 2022-ci ildə burada yeni sənaye avadanlıqlarının istehsalı, avtomatlaşdırılmış logistika mərkəzinin yaradılması nəzərdə tutulub.

"TEXNOPARK" MMC-də 16 sənaye istiqaməti birləşib. Burada həmçinin logistik mərkəz də fəaliyyət göstərir, daxili və xarici bazarlara yönəlmiş geniş çeşiddə sənaye, texniki, elektron, tikinti və məişət məhsulları istehsal olunur.

# dostluq təməlləri üzərində inkişaf edir

## Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev Fəxri qonaqlar xiyabanında ağac əkiblər




İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev "Kuksaroy" dövlət iqamətgahında Fəxri qonaqlar xiyabanında ağac əkiblər.

## Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib



İyunun 21-də "Kuksaroy" dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib. AZƏRTAC xəbər verir ki, sonra konsert proqramı təqdim olunub.

# Daşkənddə Özbəkistan və Azərbaycanın müvafiq qurumları arasında bir sıra sənədlər imzalanıb






**Özbəkistanın İnvestisiya və Xarici Ticarət Nazirliyinin, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO), Özbəkistan Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Daşkənddə Özbəkistan-Azərbaycan biznes-forumu keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmilərlə yanaşı, tikinti, sənaye, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak edib.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Özbəkistanın Baş nazirinin müavini, investisiyalar və xarici ticarət naziri Sardor Umurzakov iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin yüksək xətlə inkişaf etdiyini, bununla belə əməkdaşlığın genişləndirilməsi üçün potensialın böyük olduğunu bildirib. S.Umurzakov qeyd edib ki, Azərbaycan və Özbəkistan əməkdaşlığı genişləndirə, birgə emal müəssisələri yaratmaqla məhsullarını üçüncü ölkələrə tədarük edə bilər. Biznes forumun əhəmiyyətindən danışan nazir tədbirin yeni təşəbbüslərin və istiqamətlərin müəyyənləşdirilməsi üçün əlverişli platforma olduğunu diqqətə çatdırıb, müzakirələrin biznes əlaqələrinin genişləndirilməsi üçün faydalı olacağını vurğulayıb.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu, iqtisadi əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdırıb, dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri, aparılan danışıqlar ikitərəfli əməkdaşlığın inkişafında mühüm əhəmiyyət kəsb etdiyini bildirib. İqtisadiyyat naziri sənaye, kənd təsərrüfatı, ticarət, investisiya və sair sahələrdə tərəfdaşlığın gücləndirilməsi imkanlarını diqqətə çatdırıb, Özbəkistan iş adamlarını Azərbaycanda yaradılmış əlverişli işgüzar mühitdən yararlanmağa, birgə layihələrin icrasına dəvət edib.

Tədbirdə AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev, "Uzkimyosanoat" ASC-nin İdarə Heyətinin sədri Jurabek Mirzamaxmudov, "Uzeltexsanoat" Assosiasiyasının sədri Mirziyod Yunusov, "Uztekstilprom" Assosiasiyasının sədri İlxom Haydarov və Azərbaycan Zərgərlik Assosiasiyasının sədri Toğrul Abbasquliyev iqtisadiyyatın aidiyyəti sahələrində əlaqələrin genişləndirilməsi, hər iki ölkənin ixrac və investisiya potensialı, biznes və investisiya mühiti barədə məlumat veriblər.

Biznes forum çərçivəsində iki ölkənin müvafiq qurumları arasında bir sıra sənədlər imzalanıb.

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində Memorandum"u agentliyin İdarə Heyətinin sədri Kamran İmanov və Özbəkistanın ədliyyə naziri Ruslanbek Davletov, "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında 2022-ci il üçün turizm sahəsi üzrə əməkdaşlıq Proqramı"nı




Azərbaycanın Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Özbəkistanın turizm və mədəni irs nazirinin müavini Baxtiyor İbrahimov, "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Özbəkistan Respublikasının Energetika Nazirliyi arasında Anlaşma Memorandumu"nu ölkəmizin energetika naziri Pərviz Şahbazov və Özbəkistanın energetika nazirinin birinci müavini Azim Ahmedxacayev imzalayıblar.

Həmçinin "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Özbəkistan Respublikasının "Özarxiv" Agentliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş"i Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov və Özbəkistanın "Özarxiv" Agentliyinin sədri Uluqbek Yusubov, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyi arasında Anlaşma Memorandumu"nu Medianın İnkişafı Agentliyinin sədri Əhməd İsmayılov və Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjon Xocayev, "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO" ilə Özbəkistan Respublikasının İnvestisiya və Xarici Ticarət Nazirliyi yanında İxracın Təşviqi Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu AZPROMO-nun rəhbəri Yusif Abdullayev və Özbəkistanın İxracın Təşviqi Agentliyinin direktoru Uluqbek Muradov, "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Özbəkistan Respublikasının Ticarət və Sənaye Palatası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu agentliyin rəhbəri Yusif Abdullayev və Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Davron Vahabov, "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Özbəkistan Respublikasının İnvestisiya və Xarici Ticarət Nazirliyi yanında Xarici İnvestisiyaların Cəlb Edilməsi Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu AZPROMO-nun rəhbəri Yusif Abdullayev və agentliyin direktoru Uluqbek Kasimxocayev imzalayıblar.

Bundan əlavə, imzalanan sənədlər arasında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Özbəkistan Respublikasının Ticarət və Sənaye Palatasının sədri Davron Vahabov tərəfindən imzalanan "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Özbəkistanın Ticarət və Sənaye Palatası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərmaş"ın İdarə Heyətinin sədri Emin Axundov və "Uzavtosanoat"ın sədrinin müavini Sardor Taciyev tərəfindən imzalanan "Azərmaş" ASC ilə "Uzavtosanoat" SC arasında Azərbaycanda avtomobil istehsalının lokallaşdırılmasına dair Memorandum", "NərgizMED"in direktoru Məlahət Şahramanova və "Meri Naturel"in direktoru Miravzal Mirsadikov tərəfindən imzalanan "Azərbaycanın "NərgizMED" şirkəti ilə Özbəkistanın "Meri Naturel" şirkəti arasında məhsulların Özbəkistana ixracına dair Memorandum" da var.

"Azərbaycan Tekstil İstehsalçıları və İxracatçıları Assosiasiyası ilə "Uztekstilprom" Assosiasiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Tekstil İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədrinin müavini Səkinə Babayeva və "Uztekstilprom" Assosiasiyasının sədrinin müavini Mirmuxsin Sultanov, "Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası ilə "Uzpromstroymaterialı" Assosiasiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədrinin müavini Mayis Qasımov və "Uzpromstroymaterialı" Assosiasiyasının sədrinin birinci müavini Azizbek Baxodırov imzalayıblar.

Həmçinin forum çərçivəsində keçirilən görüşlərdə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Özbəkistan Respublikasının İnnovativ İnkişaf Nazirliyi arasında elmi əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov və Özbəkistanın innovativ inkişaf naziri İbroxim Abduraxmonov imzalayıblar.

Azərbaycan Milli Elmlər Akademiyası və Özbəkistan Respublikası Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov və Özbəkistan Milli Elmlər Akademiyası adından akademik Bexzod Yuldaşev imzalayıblar.

Tədbir hər iki ölkənin biznes nümayəndələri arasında ikitərəfli görüşlərlə davam edib.

# İstanbulda keçirilən Qlobal Parlament Konfransı başa çatıb

Türkiyə Böyük Millət Məclisi (TBMM) və Parlamentlərarası İttifaqın (IPU) birgə təşkilatçılığı əsasında iyunun 20-də İstanbulda açılışı olan Qlobal Parlament Konfransı başa çatıb.





Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi parlament nümayəndə heyəti qlobal konfransda Azərbaycanı təmsil edib. İki gün davam edən müzakirələrdən sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi parlament nümayəndə heyətinin iştirakı ilə Qlobal Parlament Konfransının bağlanış mərasimi keçirilib.

Qana Respublikasının Yuxarı Məclisinin Sədr müavini Josef Osei Ovus Qlobal Parlament Konfransının nəticələrinə dair dəyərləndirməni təqdim edib.

Sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop konfransda yekun nitqi söyləyib.

Xatırladaq ki, Azərbaycan parlamentinin spikeri konfransın iyunun 20-də keçirilən açılış mərasimində çıxış edərək, müasir dövrümüzdə kifayət qədər aktuallıq kəsb edən, beynəlxalq gündəmin əsas mövzularından biri olan miqrasiya və qaçqınlar məsələsi haqqında danışıb, Azərbaycanın bu sahədə təcrübəsi və gördüyü işlər haqqında məlumat verib.

Həmçinin konfrans çərçivəsində dünyada qaçqın və miqrantların vəziyyətini əks etdirən sərgi təşkil olunub. Sərgidə Milli Məclisin Sədri Sahibə Qafarova 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində öz torpaqlarından didərgin düşmüş azərbaycanlı məcburi köçkünlərlə bağlı fotoları iştirakçılara təqdim edərək, Ermənistanın işğalının nəticələri, bu gün Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi quruculuq işləri, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi üçün həyata keçirilən tədbirlər barədə məlumat verib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Cenevrədə keçirilən beynəlxalq tədbirlərdə iştirak edir

İsveçrənin Cenevrə şəhərində Avropa Statistikləri Konfransının 70-ci plenar sessiyası keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.




AZƏRTAC xəbər verir ki, konfrans "Rəsmi statistikanın əsas prinsipləri"nin BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən qəbul olunmasının 30 illiyinə həsr olunmuş xüsusi plenar sessiya ilə işinə başlayıb.

Milli statistika idarələrinin rəhbərləri ilə yanaşı, beynəlxalq təşkilatların statistika bölmələrinin rəhbərləri və ekspertlərinin də iştirak etdiyi sessiyalarda rəsmi statistikanın dəyərlərinin BMT-nin əsas prinsipləri ilə uyğunlaşdırılması, uşaqlar və gənclərlə bağlı, məşğulluq formaları üzrə, miqrasiya və transsərhəd hərəkətliliyinin ölçülməsi üçün yeni məlumat mənbələrindən istifadəyə dair, COVID-19 pandemiyasının qadınlara və kişilərə təsirinin ölçülməsinə dair təlimatlar, İqtisadi Fəaliyyət Növləri Təsnifatı, Avropa Statistikləri Konfransı, onun bürosu və mütəxəssislər qrupunun, eləcə də Avropa və Mərkəzi Asiya üçün məlumat və statistika üzrə regional əlaqələndirmə qrupunun işi haqqında hesabatlar, BMT-nin Statistika Komissiyasının 53-cü sessiyasından irəli gələn vəzifələr, geoməkan və rəsmi statistika sahəsində strateji istiqamətlər, özəl məlumat təchizatçıları ilə əməkdaşlıq və 2023-cü il üçün plenar sessiya çərçivəsində keçiriləcək seminarın mövzularını əhatə edən məsələlər müzakirə olunur.

Konfransda geoməkan məlumatlarından statistik məlumatların istehsalında istifadə, BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən statistikanın müxtəlif sahələri, xüsusilə yoxsulluq səviyyəsinin ölçülməsi ilə bağlı həyata keçirilən fəaliyyətlərin əlaqələndirilməsi, Avropa Statistikləri Konfransı tərəfindən yaradılmış Yüksək Səviyyəli Qrupun rəsmi statistikanın təkmilləşdirilməsi sahəsində əldə etdiyi nəticələrin müzakirəsi və qiymətləndirilməsi, özəl məlumat təchizatçıları ilə əməkdaşlıq və digər məsələlər də müzakirə olunacaq.

Sonda Avropa Statistikləri Konfransının yekun hesabatı qəbul edilərək növbəti dövr üçün konfransın büro üzvləri seçiləcək.

# Daxili işlər naziri Şirvanda vətəndaş qəbulu və sıra baxışı keçirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 21-də Şirvan Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir əvvəlcə Şirvan şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra Şəhər Polis Şöbəsinin inzibati binasında Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı rayonlarından gələn 93 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onların ərizə və müraciətlərinə operativ yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Bölgəyə səfəri çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında Şirvan şəhəri və ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib.

Xidmətə qəbulun şərtlərinə uyğun gələn 95 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 18-i Vətən müharibəsi iştirakçısı, 1-i isə şəhid ailələrinin üzvləri olublar.

Sonra daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan şəhər və rayonlarının polis rəisləri ilə əməliyyat müşavirəsi keçirərək onlardan bölgədə ictimai asayişin və təhlükəsizliyin daha da möhkəmləndirilməsini, vətəndaş müraciətlərinə obyektiv baxılmasını və qəbulu işinin düzgün təşkilini tələb edib.

# Hərbi Dəniz Qüvvələrində taktiki təlim





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2022-ci ilin döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrində taktiki təlim keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gəmilərin baza məntəqəsindən çıxışından əvvəl keçirilən brifinqdə Hərbi Dəniz Qüvvələrin komandanı kontr-admiral Sübhan Bəkirov təlimin gedişatı və icra olunacaq fəaliyyətlər haqqında məruzələri dinləyib.

Bildirilib ki, təlimin əsas məqsədi müxtəlif şəraitlərdə gəmi taktiki qruplarının təyinatı üzrə tapşırıqların icrası zamanı xüsusi təyinatlı qruplar ilə birgə fəaliyyətin işlənilməsi, döyüş fəaliyyətlərinin təşkili, qüvvələrin döyüşdə idarə olunması üzrə komandirlərin və qərargahların bacarıqlarının təkmilləşdirilməsidir.

Qeyd edək ki, taktiki təlimə Hərbi Dəniz Qüvvələrinin 30-dan çox gəmi və kateri, həmçinin 1500 nəfərədək şəxsi heyət cəlb olunub.

Təlimdə Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda Hərbi Dəniz Qüvvələrinin bölmələri tərəfindən enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi məqsədilə döyüş tapşırıqlarının icrası üzrə fəaliyyətlər praktiki yerinə yetiriləcək.

# Gənc zabitlər etimadı doğruldacaqlar







İyunun 21-də Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda 2022-ci il üzrə məzun buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, 22-ci buraxılış mərasimi münasibətilə keçirilən tədbirdə Milli Müdafiə Universitetinin və hərbi institutun rəhbərliyi, Müdafiə Nazirliyinin hərbi qulluqçuları, şəxsi heyət, müəllimlər, məzunlar, valideynlər, eləcə də ictimaiyyətin və KİV-in nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycanın Dövlət Himni səsləndirilib. Hərbi institutun döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Milli Müdafiə Universitetinin rektoru vəzifəsini icra edən, professor general-leytenant Heydər Piriyev təntənəli mərasimdə çıxış edərək əlamətdar gün münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Həmçinin gənc zabitləri yaxınlaşmaqda olan 26 İyun Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib. Vurğulanıb ki, Silahlı Qüvvələrimiz, həmçinin institut Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.

General-leytenant Heydər Piriyev çıxışında son illərdə ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlardan, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsindən, hərbi institutun zabit və kursantlarının Vətən müharibəsində iştirakından danışıb.

Gənc zabitlər də onlara göstərilən etimadı doğruldacaqlarına, Vətənə, dövlətə və xalqa layiqincə xidmət edəcəklərinə, hərbçi şərəfini hər zaman uca tutacaqlarına söz veriblər.

Sonra Heydər Əliyev adına Hərbi İnstitutu fərqlənmə ilə bitirənlərə diplomlar və hədiyyələr verilib.

Hərbi institutun döyüş bayrağının təhvili və qəbulu mərasimi keçirildikdən sonra yaş kötüyünə rəmzlər vurulub.

Hərbi orkestrin və kursantların ifasında institutun marşı ifa edildikdən sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

# Ağdamın ağ gələcəyi olacaq



## Natiq CAVADOV: "Prezident İlham Əliyev yeni Ağdamın timsalında tarixlə müasirliyin çuğlaşdığı, dünya üçün örnək olan şəhərin əsasını qoyub"

**◆ Qarabağ söhbətləri**

Səhəri dirigözlü açmış və sübh ala-qaranlıqdan Vətənə aparan müqəddəs bir yola çıxmışdı...

Ta üfüqə kimi uzanan zümrüd çəmənliklərin arası ilə qıvrıla-qıvrıla gedən bu yolla irəlilədikcə xoşbəxt xəyallara dalmış, ruhən özünü doğma Ağdamda, Əliağalı kəndində hiss etmişdi...

Görmüşdü ki, yenə bahar çağıdır, Kolanı elinin yaşıl meşəli dağlarının qoynunda saldığı Əliağalını ortadan yarıb keçən Xaçın çayı xoş zümzümə ilə çağlayır...

Xaçının coşqun dalğalarından ilhamlanan sərin meh qanad açaraq yenicə açan gilas çiçəklərinin zərif ətrini burum-burum bütün bağ-bağçaya, kəndə yayır...

Küçələr insanlarla dolub-daşır, evlərdən şən səslər ucalır, yaşıl çöllərdən uşaqların şaqraq avazı yüksəlir...

### Bu zalım ayrılığın cəmi bir neçə saatlıq ömrü qalmışdı

İllər idi ki, bu xoşbəxtliyi yaşayacağı anın arzuları ilə yaşayırdı. Ağdama qovuşmaq, heç olmasa ana yurda bircə dəfə də olsun ayaq basmaq, gözüdolusu o doğma yerlərə baxmaq, havası ilə nəfəs almaq üçün o qədər əl açıb Tanrıya dualar etmişdi ki...

Və budur, artıq duaları çin olmuşdu. Ağdamla, doğulub boya-başa çatdığı Əliağalı kəndi ilə arasına çəkilmiş 28 illik zaman səddi yıxılmış, indi bu zalım ayrılığın cəmi bir neçə saatlıq ömrü qalmışdı. Buna görə idi ki, onu Ağdama yaxınlaşdıran hər ötən anın həyəcanı birə min artır, ürəyi az qalırdı ki, sinəsindən çıxsın...

Axı o, Ağdamı özünün mənəvi qibləsi kimi qəbul edir, illərdir ki, ziyarətinə gedə bilmədiyi atasının Əliağalıdakı məzarını isə mənəvi Məkkəsi sayır, bu müqəddəs yerləri ziyarət etmək həsrəti ilə yaşayırdı. Hər zaman ürəyində bu istəyinə bir gün mütləq çatacağına dair böyük əminlik də var idi, amma bəzən heç kimə, hətta özünə belə etiraf etməyə qorxduğu ümidsizliyə qapıldığı zamanlar da olurdu: "Bəzən arzusunda olduğum o xoşbəxt günləri görməyin mənə qismət olmayacağı bədgümanlığına da düşürdüm. Buna görə də həmişə Allahdan özümə ömür payı yox, möhlət istəyirdim. Şükürlər olsun Ulu Yaradana ki, vətəndə qəribçilik çəkən yüzminlərlə soydaşımızın, o cümlədən də mənim bu müqəddəs dualarımız qəbul olundu və bizə doğma yurdlarımızın azadlığını görmək, ona qovuşmaq kimi bəxtəvərlik qismət oldu..."

Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin baş direktoru, texnika elmləri doktoru, professor, Beynəlxalq və Azərbaycan Mühəndislik Akademiyasının həqiqi üzvü, Kosmik Məsələlər üzrə Şuranın üzvü Natiq Cavadovdur "Qarabağ söhbətləri"nin qonağı...

Natiq Cavadov deyir ki, ötən il 28 May Müstəqillik Günümüzdə Ağdama, elə Qarabağın bu qədim şəhərinin xilaskarı Müzəffər Ali Baş Komandan İlham Əliyevlə birgə ilk dəfə ayaq basmaq həyatında yaşadığı ən təsvirəgəlməz xoşbəxtlik hissi olub. Hər nə qədər mənfur düşmənin yerləyeksan etdiyi Ağdamı görməkdən mənəvi ağrı-acı hiss etsə də, yeni Ağdamın ilk təməl daşını öz əlləri ilə qoyan və bununla da bütün ağdamlılara Ağdamın ağ gələcəyi olacağının xoş müjdəsini verən qurucu lider İlham Əliyevin qətiyyətindən, əzmindən güc, qüvvət alıb. Daha ana yurdunun, ümumilikdə bütün vətən torpaqlarının qara günlərini arxada qoymasından, işıqlı sabahlara yol almasından ürəyində rahatlıq hissi yaranıb.

### 30 il idi ki, "ruhlar şəhəri" kimi anılan yaralı yurdum dirçəldilərək gülüstana çevrilir

*Natiq müəllim hisslərini bizimlə böyük sevinclə bölüşür:*

- Müstəqilliyimizi qürurla qeyd etdiyimiz həmin möhtəşəm gündə Ağdamda ağdamlı ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə baş tutan təməlqoyma mərasimi illərdir ürəyimizdə ağır bir daş kimi asılıb qalan yaralara sanki məlhəm oldu. Həm də elə həmin gün cənab Prezident tərəfindən Ağdamın timsalında Qarabağın da ilk təməl daşı qoyuldu ki, bunun da çox böyük rəmzi mənası var idi. Eyni zamanda işğaldan azad edilən yurdlar arasında da ilk olaraq Ağdamın Baş planı təsdiqləndi.

Doğma şəhərimdə 140 illik tarixi olan 1 saylı məktəbin, eyni zamanda gələcəkdə burada iş yerlərinin yaradılması üçün ərazisi təqribən 200 hektara yaxın olan Ağdam Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu. Ağ-




damlılar üçün mənəvi dəyəri çox böyük olan İmarət kompleksinin bərpası ilə əlaqədar işlərə start verildi. Ağdamda İşğal və Zəfər muzeyi konsepsiyası dövlət başçımıza təqdim edildi, şəhərin içində olacaq 125 hektarlıq böyük meşə sahəsinin bünövrəsi qoyuldu.

Ümumiyyətlə, ötən il Müstəqillik Günümüzdə cənab Prezident yeni Ağdamın timsalında tarixlə müasirliyin çuğlaşacağı, dünya üçün örnək olan şəhərin əsasını qoyaraq bizlərə böyük bayram ərməğanı etdi. Həm də möhtərəm Prezident Ağdamda həyata keçiriləcək bütün işlərlə bağlı orada olan Ağdam ziyalılarının, ictimaiyyət nümayəndələrinin hər birinin fikrini öyrəndi. Ən kiçik detalın, ayrıntının belə gözdən qaçırılmamasına, mükəmməl şəkildə olmasına çalışdı.

Dövlət başçımız tərəfindən Ağdamda qoyulan bütün möhkəm bünövrələr, özüllər isə bu qədim Qarabağ şəhərinin tarixi əzəmətinin tezliklə özünə qaytarılacağının, 30 il idi ki, "ruhlar şəhəri", "Qafqazın Xerosiması" kimi anılan yaralı yurdumuzun dirçəldilərək cənnətməkana çevriləcəyinin parlaq işarəsi oldu.

### Ötən günə gün çatarmı?!.

- Bilirsiniz, əslində, bu tarixi anlarda yaşadığım hissləri sözlərlə izah etməyə çətinlik çəkirəm. Ümumiyyətlə, son bir il yarımda xəyallarımıza belə gəlməyəcək xoşbəxtliklər yaşadıq, ən əsası ruhumuzda olan natamamlıqdan xilas olduq. Vətənin hər guşəsi, hər daşı, qayası insan üçün doğmadır, amma doğulduğun torpaq bir ayrı əziz olur sənin üçün...

İllah da ki, nə sirri xudadırsa yaş üstünə yaş gəldikcə, doğulduğun torpağa daha çox meyillənirsən, harda olsan da, hara getsən də ürəyin məhz oranı istəyir...

8 mart 1955-ci ildə Ağdamın Kolanı elinin Əliağalı kəndində dünyaya göz açmışam. Kəndimiz çox mənzərəli, səfalı idi. Elə uşaqlığımız da kənddə təbiətlə içiçə keçirdi, şən, qayğısız halda böyüyürdük. Kəndimizin qarşısındakı meşədə Çi-



narlı bulağı var idi. May bayramını uşaqlarla orda keçirirdik. Böyüklərin gözündən yayınıb buz kimi çayda çimir, bağlarımız armudla dolu olsa da, sovxozun bağına armud dərməyə gedirdik. Ana-atamıza təsərrüfat işlərində kömək edir, örüşə mal-heyvan aparırdıq...

Eh uşaqlıq...

8-ci sinfə qədər Əliağalı kənd orta məktəbində, 9-10-cu sinfi Bakıda 132 nömrəli məktəbdə oxumuşam. Bakıda oxuyanda yay tətilində kəndə gələndə atam bizi 3 ay Kəlbəcər, Laçın dağlarına aparırdı.

İndi bu xatirələr yadıma düşdükcə atalı günlərim üçün burnumun ucu göynəyir...

Atam Hacı Cavadov el-obasının təəssübünü çəkən nüfuzlu kişi idi. Qarabağ hadisələri başlayanda, bu, atama çox pis təsir etdi. O çox əsəbiləşirdi, heç cür özünə gələ bilmirdi. Özümüzə qonşu sandığımız ermənilərin birdən-birə xalqımıza qənim kəsilmələri onu dəhşətə gətirmişdi. 1989-cu ildə infarkt keçirdi, sonra insult oldu. 1991-ci ildə rəhmətə getdi. Atamı elə kənddə dəfn etdik...

Amma atamın ilk "qara bayramı"nı etmək bizə qismət olmadı. O gün, 1992-ci ilin 14 martında kəndimiz ermənilər tərəfindən işğal olundu... İşğalçılar qəflətən hücum etdilər və biz kəndi tərk etməyə məcbur olduq. Amma heç ağlımıza da gətirməzdik ki, bir daha kəndimizə qayıda bilməyəcəyik...

### Xalqımızın diriliş günü

- Dərd dərd gətirər deyərlər... Elə bil qara günlər bizi təqib edirdi. Qarabağda vəziyyət getdikcə gərginləşirdi və digər ərazilərimiz də işğal təhlükəsi ilə üz-üzə idi.

O günlərlə bağlı ömür boyu yaddaşıma həkk olunan faciəvi hadisələrdən biri isə 1991-ci ildə Qarakənddə baş verən vertolyot qəzası oldu. O vaxt Ağdamda işləyirdim. Vertolyotu stadionda düşürtdük, daha sonra Tofiq İsmayılovgil vertolyota mindi, amma mən qaldım... Qəzanın baş verdiyini biləndə dünya başıma fırlandı. Özümə gələ bilmirdim, peşmançılıq hissi məni üzürdü. Elə hey düşünürdüm ki, gərək mən də minəydim, onlarla birlikdə şəhid olardım... Amma görünür, tale qismətimə şəhidlik zirvəsi yazmayıbmış...

27 sentyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyev Vətən torpaqlarımızın azad olunması üçün işğalçılara qarşı haqq savaşı açanda, sözün əsl mənasında, millət kimi diriliş yaşadıq. Nəhayət, yurd həsrətimizin bitəcəyindən, şəhidlərimizin qisasının alınacağından doğan mənəvi rahatlıq duyduq. Cəbrayılın işğaldan azad olunduğunu eşidəndə az qaldı sevincdən ürəyim partlaya. Təzyiqim birdən-birə 220-ə qalxdı, boğulurdum. Dərmanla birtəhər sakitləşdim. Eləcə də işğaldan bir-bir azad edilən rayonlarımızın - Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın adlarını eşitdikcə sevincdən uşaq kimi ağlayırdım... Kəlbəcər və Laçının işğaldan qurtuluşu xəbərlərini eşidən də hönkürmüşdüm...

Çox qəribədir ki, Ağdamın azadlıq xəbərini eşidəndə, qəlbimdə illərdir yığılıb qalan qəhər boğazımda necə düyünləndisə, ağlaya da bilmədim...

Məni ağladan Prezident İlham Əliyevlə Mehriban xanımın Ağdam məscidinə daxil olma səhnəsi oldu...

Ölkənin birinci şəxsləri döşəməsi olmayan məscidə ayaqyalın girdilər, divarı öpdülər. Mehriban xanım başını divara qoyub qucaqladı. Bu, təkcə müqəddəs məkana yox, bütün Qarabağa olan yüksək münasibət idi...

Bu, insanlarımızın mənəvi dəyərlərinə verilən yüksək qiymət, ehtiram idi...

### Heç bilmirəm bu dərdə ürəyim necə tab gətirəcək?!

- Ağdamı ermənilər başdan-başa viran qoyub, bir salamat tikili belə qoymayıblar. O vaxt bizim evin qarşısına "qrad" düşmüşdü, 2 metr dərinliyində, 10 metr radiusda çuxur açmışdı. Dağılmayan evləri yandırıb, talan ediblər, daşı daş üstündə qoymayıblar. Görün bunlar necə vəhşi, insanlıqdan uzaq varlıqlardır ki, hətta qəbiristanlıqlarımıza da qənim kəsiliblər, bütün məzarlıqlarımızı şumlayıblar.

Hər zaman içimdə bir qorxu var idi ki, birdən kəndə qayıdanda atamın məzarını tapa bilmərəm. Yerini bilsəm də, üstündə başdaşı olmasa, tapmaq çətin olacaqdı. Çünki bütün qəbirlər yan-yanaydı. Daim orda yaşayan qardaşıma arxayın idim ki, o, yeri santimetrinə kimi dəqiq bilər. Amma o qardaşım da rəhmətə gedib.

Ağdam şəhərində olsam da, hələ Əliağalıya gedə bilməmişəm. Orada olan qohumlarımız deyiblər ki, kənd qəbiristanlığı tamamilə dağıdılıb. Bizim qohum-əqrəbanın, o cümlədən də atamın qəbirləri tanınmaz hala düşüb.



Düz 30 il idi ki, mən bu qorxu ilə yaşayırdım ki, gedəndə o qəbirləri tapa bilməyəcəm. İndi qorxduğum başıma gəlib. Düzdür, hansısa səmtlə, yönlə məzarın yerini müəyyənləşdirə biləcəyik, amma dağıdılmış bir məzarlıq görəcəyik... Heç bilmirəm, bu dərdə ürəyim necə tab gətirəcək?!

### Böyük qayıdışa möhtəşəm hazırlıq işləri görülür

- Onu da deyim ki, bütün bu dərdlərə, ağrılara rəğmən ürəyimiz toxtaqdır. Bilirik ki, "dəmir yumruğ"un qətiyyətli zərbəsi ilə mənfur düşməndən qisasımızı alan, erməni vəhşiliyinin qurbanına çevrilən günahsız insanlarımızın qanını yerdə qoymayan Müzəffər Ali Baş Komandan İlham Əliyev indi də yurdlarından didərgin düşən elimizin böyük qayıdışı üçün işğaldan azad edilən bütün bölgələrimizdə dünyada misli görülməmiş quruculuq-bərpa işləri həyata keçirir. Eyni zamanda cənab Prezident mükəmməl diplomatik bacarığı ilə bir güllə atılmadan, bir itki belə verilmədən xilas etdiyi Qarabağın mərkəzi sayılan Ağdamı başdan yaradır.



İnnovativ çağdaş şəhər qurur, özü də Ağdamın qədim ruhunu saxlamaqla.

Artıq bu ilin fevralında cənab Prezident tərəfindən Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyulub.

Gələcəkdə bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin edilsin deyə, Ağdamda iki yarımstansiyanın - "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının açılışı olub.

Ağdamda yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulması istiqamətində də mühüm işlər görülür. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Dövlət başçısının göstərişi ilə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi icra olunur. Bu yol həm Füzuli və Ağdam şəhərlərini, həm də Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

Ağdamın gələcək qonaqları üçün şəhərdə müasir mehmanxananın təməli qoyulub, eyni zamanda təqribən il yarıma - iki ilə altı binadan ibarət yaşayış kompleksinin inşası nəzərdə tutulub. 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulub. Ağdama qaz xətlərinin çəkilişi layihəsi işlənilir, içməli suyun gətirilməsi planlaşdırılır.

Yanaşı olaraq, bütün işğaldan azad edilən torpaqlarımızda olduğu kimi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu qədim şəhərimizin də tarixi, dini və mədəni irsinin öz əzəli formasına qaytarılması üçün bərpa işləri həyata keçirir. O cümlədən də fond Ağdamın mənəvi ruhunun daşıyıcısı, döyüşdən sağ çıxan yeganə binası, şəhərimizin sağ qalan yeganə "qazi"si olan tarixi Cümə məscidini yüksək səviyyədə bərpa edir.

Bir sözlə, yeni Ağdam sevinclə doğma övladlarına qucaq açmağa hazırlaşır. Vətən torpaqlarımızın qətiyyətlə azad olunması, sonra isə dirçəldilməsi üçün görülən bütün müstəsna işlər isə vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən qayıdış strategiyasının Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük müvəffəqiyyət və əzmlə həyata keçirilməsinin möhtəşəm nəticəsidir.

### Milli Qurtuluş Günümüzü Ağdamda qeyd etdik

- Gözlərimiz qarşısında gerçəkləşən bu möcüzələrə, bir andaca məğlub vətəndaşdan qalib vətəndaşa çevrilməyimizə, vətəndə qəribçilikdən qurtulmağımıza görə Azərbaycan tarixinin bu iki parlaq şəxsiyyətinə - Heydər Əlirza oğlu Əliyevə və İlham Heydər oğlu Əliyevə ömür boyu minnətdar olacağıq.

Bu baxımdan ağdamlı ziyalılar olaraq 15 İyun Milli Qurtuluş Günümüzü də doğma Ağdamda qeyd etməyimizin böyük rəmzi mənası var idi.

İlk öncə Ağdamda Bayraq meydanında olduq, sonra Şəhidlər xiyabanını ziyarət etdik və doğma torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərin əziz ruhunu yad etdik. Ağdamın tarixi abidələrindən olan İmarət kompleksinə də baş çəkdik. Ümumiyyətlə, səfər zamanı Ağdamda erməni vandalizmi nəticəsində dağıdılmış qəbiristanlıqları, tarixi binaları, mədəniyyət abidələrini ziyarət etdik. Ürək ağrısı ilə erməni vəhşiliyinin təzahürlərinə bir daha baxdıq və o anda hər birimizin beynində, qəlbində yalnız bir hiss var idi: qaniçən, barbar erməni vəhşilərinə qarşı nifrət.

Eyni zamanda erməni vandallarının talan etdiyi Ağdamda dövlətimizin həyata keçirdiyi yenidənqurma işlərini görüb, qurucu Azərbaycan xalqı ilə bir daha qürur, fəxr duyduq. Səfər zamanı Ağdam Cümə məscidində aparılan restavrasiya işləri, yenicə tikilən Ağdam şəhər 1 saylı məktəb və yaşayış binaları ilə tanış olduq. Qarabağ İqtisadi Rayonuna daxil olan ərazilərdə aparılan yenidənqurma və bərpa prosesləri, eləcə də gələcək planlar haqqında geniş məlumat aldıq.

### Ağdamda canlanan həyatın nişanəsi

- Bir məsələni də qeyd edim ki, biz Ağdama gedəndə də, dönəndə də şəhərin yenicə çəkilməkdə olan yollarında tıxaca düşdük. Təsəvvür edin, ömrümdə ilk dəfə idi ki, bu cür yeni çəkiləcək kələ-kötür yolla getdiyimə, bu yolda tıxaca düşdüyümə görə sevinirdim. Bütün bunlar Ağdamda qaynayan, insanlarla aşıb-daşan bir həyatın göstəricisi idi. Elə həmin tıxac zamanı avtobusda öz-özümə düşünürdüm ki, İlahi, cəmi il yarım əvvələ qədər bircə həyat nişanəsi belə tapılmayan Ağdama indi insan axını var.

Cəmi il yarım əvvələ qədər, tankın, topun, mina partlayışlarının səsinin eşidildiyi bu yerdən, indi böyük iş maşınlarının, traktorların sədası yüksəlir.

Cəmi il yarım əvvələ qədər daşı daş üstündə qalmayan, torpağı da torba-torba daşınan, talan olan bu şəhərdə, indi, sözün əsl mənasında, hər gün daş üstünə daş qoyulur, meqalayihələr gerçəkləşdirilir.

Ağdam, kəndimiz işğal altında olanda hərdən anamgili götürüb Bərdəyə, Ağdamın sərhədinə tərəf gedirdim. Ordan kəndimizin havasını alırdıq. Dağlara baxırdıq. Bizim kəndimiz Şahbulaq dağının arxasında, Xaçınçayın üstündə idi. Xaçınçay Quzanlıdan da keçirdi. Əlimizi çayda yuyurduq, elə bilirdik ki, kəndimizdəyik. Bununla təskinlik tapmaq istəyirdik, toxtamağa çalışırdıq...

İndi isə qarşımızda, elə yenə də mənfur ermənilərin basdırdığı minalardan başqa, heç bir sədd, əngəl yoxdur. İllərdir həsrətini çəkdiyimiz doğma yurdumuza baş çəkə bilirik, suyunu içirik, havası ilə nəfəs alırıq...

Bəs möcüzə başqa necə ola bilər ki?!

Yeni Ağdamın qurulduğu bu məqamda biz ağdamlı ziyalıların, ümumiyyətlə, bütün ağdamlıların üzərinə də böyük məsuliyyət düşür. Hamımız əl-ələ verib, kimin hansı sahədə nəyə gücü çatırsa, yurdumuzu yenidən abadlaşdırmaq üçün çalışmalıyıq. Ağdamı əvvəlki kimi cənnətə çevirməliyik...





### *Ağdam, Əliağalı...*

*Budur yenə yaz ayları gəlib. Kolanı elinin dağların qoynunda saldığı Əliağalını ortadan ikiyə bölən Xaçın çayı da buzdan libasını çıxarıb xoş zümzümə ilə çağlayır. Ta uzaqlardan, başı qarlı dağlardan üzü kəndə əsən sərin meh sıx meşələrə, yaşıl çəmənlərə tumar çəkir, meyvə ağaclarından qopardığı ağappaq ləçəkləri bəyaz kəpənəklər kimi oradan-oraya uçurur... Küçələr insanlarla dolub-daşır, evlərdən şən səslər ucalır, yaşıl çöllərdən uşaqların şaqraq səsi yüksəlir...*

*Natiq Cavadov da Əliağalıda əvvəlki yerində atası Hacı kişiyə layiq tikdirdiyi evə yığışıb, nəvə-nəticələrini də cəm edib başına. Beləcə, bütün yazı, yayı çoxlu meyvə ağacları, al-əlvan çiçəklər əkdiyi bağda nəvə-nəticələri ilə birlikdə keçirəcək. Onlarla birlikdə çox-çox illər əvvəldə, uşaqlığında olduğu kimi, kəndin qənşərindəki meşəyə yollanacaq, payızdan qalma xəzəlin altından baş qaldıran qıpqırmızı ətirli meşə çiyələyindən dərib yeyəcək, Çinarlı bulağından doyunca su içəcəkdi. İllərdir ürəyində qövr edən, sızlayan, alışıb-yanan yaralarına bir məlhəm olacaq...*

*Sonra böyüklərin gözündən yayınıb buz kimi çayda çimən, quzuları da qabaqlarına qatıb dağların yamaclarına üz tutan nəvə-nəticələrinin, qonşu uşaqlarının hay-harayı gələcəkdi qulağına, istər-istəməz gülümsəyəcəkdi, dərindən rahat bir nəfəs alacaqdı...*

*Elə biləcəkdi ki, nə zaman ötüb keçib, nə də o, heç vaxt atalı-analı günlərindən, Ağdamından, Əliağalısından uzaq düşməyib... Həyat illər əvvəl necə idisə, elə o cür də davam edib...*

*Bəxtəvər, xoşbəxt, rəvan, axarında...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# IX Bakı Forumu - regionun gələcəyinə aydın baxış

Azərbaycanın dünya nizamına təsir gücünə malik ölkəyə çevrilməsi reallığını son illər dövlətimizin təşəbbüsü və evsahibliyi ilə keçirilən beynəlxalq tədbirlər də bir daha təsdiqləyir. Dünyanın müxtəlif dövlətlərindən siyasətçilərin, ictimai xadimlərin, akademik dairələrin təmsilçilərinin qatıldıqları qlobal əhəmiyyətli bu toplantılarda bəşəriyyəti narahat edən bir sıra məsələlər müzakirəyə çıxarılır. Hər kəsin maraqlarında olan suallara cavablar, problemlərə həllər axtarılır. Bakıdan dünyaya çağırışlar ünvanlanır.

## "Qlobal dünya nizamına təhdidlər"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da paytaxtımızda keçirilən IX Qlobal Bakı Forumu da bu baxımdan istisna olmadı. "Qlobal dünya nizamına təhdidlər" mövzusuna həsr edilmiş forum öz mahiyyəti, məqsədləri, mesajları ilə tarixi bir tədbir kimi yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin forumdakı proqram xarakterli nitqi qlobal gündəlikdə yer alan məsələlərin həllində yeni yanaşmaların müəyyənləşməsi baxımından aydın istiqamətlər verdi.

Onu da qeyd edək ki, IX Qlobal Bakı Forumunda 50-dən çox ölkənin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Bu beynəlxalq tədbirdə bəşəriyyətin nizamını təhdid edən mühüm problemlər, o cümlədən dünyada təhlükəsizliyin və sülhün təmin olunması perspektivləri, enerji təhlükəsizliyinə təhdidlərin həlli yolları müzakirəyə çıxarılmışdı. Habelə həssas bölgələrdə sülh, əməkdaşlıq və inteqrasiya, qloballaşan dünyamızda artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm məsələlər də forumun gündəliyinə daxil idi.

Bütün bunlar ilk növbədə IX Qlobal Bakı Forumunun siyasi aktuallığını göstərir. Eyni zamanda bu tədbirdə aparılan müzakirələr, fikir mübadilələri dünya gündəmində yer alan ən mühüm problemlərin araşdırılmasına, həllinə töhfə verəcəyinə böyük ümidlər yaradır. İştirakçıların tərkibi, gündəliyə çıxarılan məsələlərin aktuallığı, aparılan müzakirələrin istiqamətləri bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran beynəlxalq mərkəzə çevrildiyini bir daha təsdiqləmiş oldu.

2012-ci ildə yaradılmış bu mərkəz Azərbaycan Respublikası Prezidentinin dəstəyi ilə fəaliyyətini davam etdirir. Qeyri-hökumət təşkilatı kimi ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçılarını, nüfuzlu beynəlxalq ekspertləri birləşdirir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirlərə, birgə fəaliyyətlərə töhfə verməkdən ibarətdir. IX Qlobal Bakı Forumu da mərkəzin üzərinə düşən missiyanı uğurla yerinə yetirdiyini göstərdi.

## Səylər düzgün məqsədə yönəldilməlidir

Bu gün təhlükəsizlik məsələləri beynəlxalq arenada duran əsas problemlərdən birinə çevrilib. Bu reallıq dünyadakı, o cümlədən Avropa regionundakı cari vəziyyət barədə açıq müzakirələrin aparılmasını tələb edir. Qlobal Bakı Forumu bu cür müzakirələr üçün mükəmməl platforma rolunda çıxış etdiyini bir daha təsdiqlədi.

Hazırda dünya nizamında baş verən proseslər böhranın qaçılmaz olduğunu və artıq çox yaxınlaşdığını göstərir. Böhranla mübarizənin effektivliyi üçün aparıcı beynəlxalq və maliyyə institutlarının rolunun müəyyən olunması zərurətə çevrilmişdir. Azərbaycan Prezidenti forumdakı çıxışı zamanı bunun üçün beynəlxalq təşkilatların və ölkələrin ərzaq böhranının nəticəsi olacaq miqrantların potensial artımı ilə bağlı vəziyyətin diqqətdə saxlanmasının vacibliyini qeyd etdi.

Dünya ölkələri üçün problem yaradan əsas amillərdən biri də enerji bazarlarındakı qeyri-müəyyənlikdir. Dövlət rəhbəri qeyd etdi ki, qlobal enerji bazarlarındakı vəziyyəti proqnozlaşdırmaq çox çətindir. Bazar trendləri, qiymətlərə təsir göstərən amillər sürətlə bir-birini əvəz edir. Mövcud vəziyyət isə istehsalçılarla istehlakçılar arasında qeyri-bərabərsizliyə yol açır. Hazırda dünya bazarlarında enerji daşıyıcılarının qiyməti kifayət qədər yüksəkdir. Bu, neft-qaz istehsalçısı olan ölkələrin proqnozlaşdırılandan daha böyük qazanc əldə etməsinə şərait yaradır. Ona görə də ilk baxışdan mövcud vəziyyətin bu ölkələr, o cümlədən Azərbaycan üçün sərfəli olduğunu düşünmək olar. Amma bu, ilk baxışdan belədir. Əslində isə, mövcud vəziyyət öz riskləri ilə enerji istehsalçıları üçün də ciddi problemlər yaradır.

Azərbaycan Prezidenti forumdakı çıxışı zamanı bu məqamın aydın izahını verərək qeyd etdi ki, əgər kimsə neft və qaz istehsal edən ölkələrin bu yüksək qiymətlərə görə çox sevindiyini düşünürsə, bu, düzgün dəyərləndirmə deyil. Azərbaycanın istəyi istehsalçılar və istehlakçılar arasında maraqlar tarazlığının, sabit bazarın təmin edilməsidir. Enerji istehsalçıları üçün lazımi arzuedilən vəziyyət, əslində, budur. Azərbaycanın fəal iştirak etdiyi OPEC+ formatında səylər də belə bir məqsədə yönəlib. Prezident İlham Əliyev bütün bunların yeni çağırışlar olduğunu diqqətə çatdırdı. Durumun nə qədər sürətlə dəyişdiyini əyani bir misalla izah etdi: "Mənim indi dediklərim altı ay bundan əvvəl burada əyləşərək söylədiklərimdən tamamilə fərqlidir. Bu, onu göstərir ki, hər şey dəyişə bilər, hər şey dəyişir və heç nə sabit deyil".

## Cənubi Qafqazda nadir fürsət

Dövlətimizin rəhbəri Azərbaycanın zəfəri ilə başa çatmış Vətən müharibəsindən sonrakı vəziyyətlə bağlı fikirlərini, Qafqazda regional təhlükəsizliklə əlaqədar yanaşmalarını forum iştirakçıları və onların şəxsində dünya ictimaiyyəti qarşısında açıq şəkildə ifadə etdi: "Azərbaycan müharibədə qalib gəldi, müharibə ədalətli idi, müharibə labüd idi və ədalətin, beynəlxalq hüququn və Azərbaycan xalqının milli ləyaqətinin bərqərar olunması ilə nəticələndi. İndi biz sülh haqqında danışırıq. Hesab edirəm ki, belə uzunmüddətli qarşıdurmadan sonra ədaləti bərqərar edən və təcavüzkarı məğlub edən ölkənin qısa müddət ərzində sülh təklif etməsi dünyada nadir hallardan biridir. Müharibələr tarixinə baxsanız, bir çox hallarda bu mənzərə müşahidə edilmir".

Nə üçün biz sülhü seçdik sualına cavab olaraq Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazda sabit, dayanıqlı inkişaf görmək istəyir: "Bu, nadir fürsətdir. Cənubi Qafqaz üç Cənubi Qafqaz ölkəsinin müstəqillik illəri ərzində parçalanmışdır. Ermənistanın işğalı səbəbindən o, 30 il ərzində parçalanmışdır. İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır".

## İnkişaf naminə sülh

Ermənistan Azərbaycan torpaqlarını təxminən 30 il işğalda saxlamaqla, öz təcavüzkar mövqeyi ilə, əslində, ümumən Cənibi Qafqazın inkişafına çox böyük zərbə vurdu. Bu 30 il region üçün itirilmiş illər oldu. Halbuki dövrün imkanlarından faydalanaraq bu bölgədə çox böyük uğurlara imza atmaq mümkündür.

Məsələnin ibrətamiz tərəfi isə budur ki, işğalçı siyasətdən ən çox itirən də elə Ermənistan oldu. Azərbaycanın uğurlu diplomatiyası, tarixi həqiqətlərimizin dünyaya düzgün çatdırılması sayəsində Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən işğalçı və təcavüzkar ölkə kimi tanındı. Azərbaycanın zəfəri, azad olunmuş yurdlarımızdakı mənzərə onların mahiyyətini bütün dünyaya göstərdi. Müharibə bitdikdən sonra hər kəs onların işğal zamanı hansı dağıntıları törətdiklərini gördü. İşğalçı ölkənin 30 il ərzində Azərbaycan torpaqlarında həyata keçirdiyi vandalizm aktları bütün erməni xalqı üçün böyük bir utancdır. Əsrlər ərzində özü haqqında mədəni xalq imici yaratmağa çalışmış saxtakar ermənilər bu vandalizm mənzərəsi ilə çox böyük bir fakt qarşısında qaldılar. Eyni zamanda hər kəsə bəlli oldu ki, Ermənistanın bu 30 il ərzində Qarabağda, Şərqi Zəngəzurda inkişaf adına gözə görünən nə varsa söküb-dağıtmaqdan, pula gedən hər şeyi satmaqdan başqa "qazancı" olmayıb. Halbuki əgər münaqişə yaranmasaydı, bu bölgədə həyata keçirilən inkişaf layihələrindən, kommunikasiya imkanlarından hər kəs uğurla faydalana bilərdi.

Tarixi zəfərimizdən dərhal sonra azad yurdlarımızda genişmiqyaslı quruculuq, abadlıq tədbirləri başlanıb. Ermənistanın dağıtdıqlarını Azərbaycan qısa müddətdə və ən müasir şəkildə yenidən qurur. Bununla ölkəmiz kimin hansı niyyətdə olduğunu, regionun gələcəyinə nələri vermək arzusunu və potensialını bütün dünyaya nümayiş etdirir. Azərbaycanın amalı Cənubi Qafqazın inkişaf mərkəzinə çevrilməsidir, bu bölgədə bütün maraqlı tərəflər arasında əməkdaşlığın əldə olunmasıdır. Birgə inkişaf layihələrinin icrası, hər kəsin bu inkişafdan, bu imkanlardan faydalana bilməsidir. Çünki müasir dünyanın reallıqları göstərir ki, nailiyyətlər, uğurlu nəticələr, irəliləyişlər, ən böyük qazanclar münaqişələrdə deyil, məhz əməkdaşlıqdadır. Mövcud fürsətlərdən birlikdə yararlanmağı bacarmaqdadır. Azərbaycanın da istəyi bu əməkdaşlığa nail olmaqdır. Ölkəmiz sülhü inkişaf naminə istəyir.

Yaranmış tarixi reallıqlar, gedən proseslərin məcrası Azərbaycanı bölgədə sülh və inkişafın təminatçısına çevirir. Regionda davamlı inkişaf mühitinin təmin edilməsindən ötrü isə atılan addımların qarşılıqlı olması çox mühümdür. Prezident İlham Əliyev bunu xüsusi vurğuladı və qeyd etdi ki, gələcəkdə qarşılıqlı olaraq hər hansı ərazi iddialarından çəkinməliyik. Azərbaycanın artıq sərhədin delimitasiyası ilə bağlı komissiya yaratması ölkəmizin bu məsələdə səmimi niyyətini, əməli addımlarını göstərir. Ölkəmiz eyni addımı indi Ermənistandan da gözləməkdədir.

## Reallıqlar düzgün qiymətləndirilməlidir

Qonşu ölkələrin rəhbərləri, ümumilikdə Ermənistan cəmiyyəti yaranmış yeni reallıqlardan nəticə çıxarmalıdır. 30 il ərzində yol verilmiş yanlışları düzgün dəyərləndirməlidir. Artıq Minsk qrupu kimi səmərəsiz formatlarla boş cəhdlər etmək zamanı deyil. ATƏT-dən mandat almış Minsk qrupu 28 il ərzində heç bir nəticəyə nail ola bilmədi. Ona görə də Minsk qrupu ilə bağlı hər hansı bir fərziyyə Azərbaycanda yalnız qıcıq doğurur. Münaqişə həll olunub. Minsk qrupu tərəfindən işlənib hazırlanmış Madrid prinsipləri də öz həllini tapıb. İndi Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması yolları barədə düşünmək və sülh müqaviləsi imzalamaq zamanıdır. Dövlət rəhbərimiz forum iştirakçılarının timsalında ümumən dünya ictimaiyyətinə bu reallığı çatdırdı. Eyni zamanda qeyd etdi ki, Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Çünki münaqişənin həlli ilə Minsk qrupu öz funksiyasını itirib. Artıq onlarla vidalaşmaq və qrupu təqaüdə göndərmək vaxtıdır.

Prezident İlham Əliyev ölkəmizin sülh razılaşması üzərində çalışmağa başlamaq təklifini bir daha dilə gətirdi. Dövlətimizin başçısı dedi: "Biz hər iki ölkənin sərhədlərinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət etmək və tanımaq, indi və gələcəkdə hər hansı bir ərazi iddialarından qarşılıqlı şəkildə çəkinmək prinsipi də daxil olmaqla, beynəlxalq hüququn beş əsas prinsipini və bizim təklifin əsasını təşkil edən başqa prinsipləri də irəli sürdük". Ölkə rəhbəri onu da xatırlatdı ki, Azərbaycan artıq öz tərəfindən sülh razılaşması üzrə komissiyasını yaradıb və eyni addımın Ermənistan tərəfindən atılmasını da gözləyir. Bu addım atılan kimi danışıqlara başlanacaq.

Forumda 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatda kommunikasiyaların açılması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə Ermənistanın əməl etməsinin vacibliyi vurğulandı. Bununla Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi təmin olunmalıdır. Ermənistanın kapitulyasiya aktını imzalamasından il yarımdan çox vaxt keçsə də, əfsuslar olsun ki, qonşu dövlət bu istiqamətdə əməli addım atmayıb. Azərbaycana Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla əlaqə imkanı yaradılmayıb. Bu isə, üçtərəfli Bəyanatın müddəalarının pozulmasıdır. Belə bir vəziyyət ümumən regionda disbalansın yaradılması deməkdir.

## Zəngəzur dəhlizi açılmalıdır

Azərbaycan Prezidenti bununla bağlı dövlətimizin mövqeyini özünəməxsus qətiyyətlə dilə gətirdi. Bildirdi ki, Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir. Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq. Prezident İlham Əliyev dedi: "Onlar növbəti müharibə istəyirlərsə, bu, onlar üçün fəlakət olacaqdır və onlar bunu yaxşı anlayır. Hesab edirəm ki, Ermənistan hökuməti və oradakı revanşist qüvvələr aydın şəkildə dərk edirlər ki, bu, onların dövlətçiliyinin sonu olacaq. Beləliklə, biz Ermənistandan aydın cavab almalıyıq ki, onlar Cənubi Qafqazı necə görürlər? Bizim mövqeyimiz aydındır, Gürcüstan hökumətinin də mövqeyi aydındır ki, biz dialoq və təmaslara start verməliyik".

Prezident İlham Əliyev Qarabağda yaşayan erməni əhalisinin hüquqları və təhlükəsizliyi məsələsinə də diqqət yönəltdi və bunun nəzərə alınacağını bəyan etdi. Azərbaycanın bütün əhalisinin hüquq və təhlükəsizliyinin Konstitusiya ilə təmin olunduğunu nəzərə çatdırdı.

## Tarix artıq yazılıb

Ermənistan cəmiyyəti Dağlıq Qarabağın artıq mövcud olmadığını anlamalıdır. Dövlət rəhbərimiz Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edildiyini və hazırda ölkə ərazisində belə bir inzibati strukturun olmadığını xatırlatdı. Bu səbəbdən, Ermənistan hökuməti anlamalıdır ki, dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq: "Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb", - deyən Prezident İlham Əliyev vurğuladı ki, əgər Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, o zaman Azərbaycan üçün də Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa çıxış yolu olmayacaq. Tarixi nöqteyi-nəzərdən Azərbaycanın bunu etməyə hüququ var. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşməsindən sonra sovet hakimiyyəti qədim yurdumuzu, Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirib.

"Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Bakı Forumu regionun gələcəyinə aydın baxışını, sülh və inkişaf perspektivlərini ortaya qoydu. Böyük ümidlər yaradan əsas məqamsa ondan ibarətdir ki, bu gün regiondakı reallıqları, əsas prosesləri məhz Azərbaycan diktə edir. Bu isə Cənubi Qafqazın rifahını, bu bölgədə yaşayan insanların firavan gələcəyi ilə bağlı arzularını gerçəkliyə yaxınlaşdırır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Din ruhun, mənəviyyatın saflığıdır

Azərbaycan tarixində baş vermiş ən böyük faciələrdən biri də 1920-ci illərdən başlayaraq 30 ilə yaxın davam edən repressiya olmuşdur.

Həmin illərdə Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd olaraq totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan, əsasən, milli özünüdərk və milli dövlətçilik əqidəsinə, siyasi rejimin diktəsinə deyil, milli hissiyyatı olduğuna görə repressiyalara məruz qalaraq ya güllələnmiş, ya da Sibirə, Orta Asiyaya sürgün olunmuşdur. Dini kitablar qadağan edilmiş, yandırılmış, bu və ya digər formada məhv edilmişdir. Məscidlər bağlanmış, yaxud da tamamilə dağıdılmışdır. Bu proses ötən əsrin 70-ci illərinə qədər davam etmişdir. 1969-cu ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonrakı dövrü milli özünüdərk, milli oyanış dövrü də adlandıra bilərik. Artıq ötən əsrin 70-ci illərindən başlayaraq insanlara Allahın adını çəkməyə, ibadət etməyə və dini ritualları həyata keçirməyə qeyri-rəsmi icazə verilirdi. Məscidlər təmizlənir, ya tarixi abidə kimi nəzarətə götürülür, ya da kitabxana və ya mədəniyyət obyektləri kimi fəaliyyətinə icazə verilirdi.

1990-cı illərin əvvəllərində SSRİ-nin süqutundan sonra bu məsələdə vəziyyət dəyişdi. Din yalnız mütləq yaradıcıya ibadət sistemi deyil, daha çox həyat tərzidir. Din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsini təşkil edir. Dinin insanlar tərəfindən doğru dərk edildiyi və aşılandığı zaman bu dəyərlərin sülhün zəmanətçisi olduğunu anlamaq heç də çətin deyil. "Sivilizasiyalar toqquşmasının" hökm sürdüyü müasir dövrümüzdə ayrı-ayrı dinlərin mənsublarına dözümlülük nümayiş etdirmək nəinki çox yüksək mənəvi dəyər, eləcə də demokratik rejimin zəruri göstəricisi kimi qəbul edilməkdədir. Dünya birliyi tərəfindən hər bir dinə hörmət bəsləmək kimi önəmli bir dəyər cəmiyyətin bütövlüyünün əsas şərtlərindən biri olaraq qəbul edilməklə yanaşı, praktikada bu dəyərin heç də hər zaman nəzərə alınmadığı görünməkdədir. Amma mövcud şəraiti düzəltmək, insanlara dini dözümlülük xüsusiyyətlərini aşılamaq nəinki ayrı-ayrı dövlətlərin, eləcə də beynəlxalq təşkilatların vəzifələrindən birinə çevrilmişdir.

Azərbaycan dövlətinin başında milli-mənəvi dəyərlərə sadiq, onun inkişafının qayğısına və əsrlərdən bəri bizə miras qalmış dini və bəşəri dəyərləri qoruyaraq gələcək nəsillərə çatdırılması üçün çalışan bir lider cənab İlham Əliyev durur. Azərbaycanda hər bir vətəndaş dini etiqad azadlığını tam sərbəst formada həyata keçirə bilir. Dini ocaqlar, məscidlər, ibadətgahlar dövlət tərəfindən qorunaraq bərpa edilir, yeni məscidlər tikilir. Hətta Bakının mərkəzində erməni kilsəsi də yüksək səviyyədə bərpa olunaraq fəaliyyətini davam etdirir. Din əxlaqdır. Din mədəniyyətdir. Din Allaha və insanlara sevgidir, inamdır, ruhun, mənəviyyatın saflığıdır. Qürurla deyə bilərik ki, dövlət başçısı və onun ailə üzvləri müqəddəs Həcc ziyarətində olub, Kəbə evini ziyarət ediblər.

## Bizi qələbəyə aparan dualar

İllər idi ki, torpaqlarımız təcavüzkar Ermənistan tərəfindən işğal olunub, qan tökülürdü. Günahsız insanlarımız qətlə yetirilir, ana bətnində ikən körpələrimiz Xocalıda, Kəlbəcərdə, Ağdamda süngüyə keçirilirdi. Əllərimiz Tanrıya Qarabağ həsrəti ilə açılırdı. Prezident İlham Əliyev bütün çıxışlarında sülh niyyətini bəyan edib, düşməni sülhə, qan tökməməyə çağırırdı. Düşməni zorun deyil, ağlın gücü ilə hərəkət etməyə dəvət edirdi. Təəssüf ki, dinləmədilər. Çıxışlarının birində Müzəffər Ali Baş Komandan "Mən müqqəddəs Məkkədə ziyarətdə olarkən Qarabağa, əsgərlərimizə dualar edirdim", - dedi. Zəmimizə, halalımıza donuz girmişdi. Və anlamaq istəməyən düşməni yerində oturtmaq üçün bir gün Allaha uzanan əllər qəzəbli "dəmir yumru"ğa döndü. Bu zaman da səbrimizi, milli kimliyimizi qoruduq.

Düşmənin üstünə əxlaqla getdik. Biz müharibə istəmirdik. Düşmən bizi buna vadar etdi. İlk həmlə yenə düşməndən gəlmişdi. Əli qana bulaşmış düşmən yenə insanlıqdan çıxmışdı, qana susamışdı. Amma biz düşməndən fərqli olaraq onunla ədalətlə davranırdıq. Düşməndən fərqli olaraq onun yalnız hərbi obyektlərini vururduq. Bu gün düşmən qəti surətdə iddia edə bilməz ki, 44 günlük Vətən müharibəsində ya bir məktəb, ya bir uşaq bağçası dağıtmışıq. Yaxud 44 günlük Vətən müaribəsində Azərbaycan əsgərinin gülləsindən erməninin bir uşağı belə ziyan çəkməmişdir.

## Qarabağa müqəddəs kitabımız "Qurani-Kərim" ilə getdik

44 günlük Vətən müharibəsi dünyaya həm də Azərbaycan əxlaqını, müharibə aparmaq mədəniyyətini nümayiş etdirdi. Düşmən işğal etdiyi bütün əraziləri dağıdıb, viran qoyub, daş üstə daş qoymayıb. Onun xisləti budur. Bayquş kimi xarabalıq aşiqi olduğunu sübut edib. Azərbaycan Prezidenti və Birinci xanım Mehriban Əliyeva Qarabağa əllərində "Qurani-Kərim" ilə getdlər. Bu tərəqqipərvər, əxlaqi dəyərlərə önəm verən, dinindən asılı olmayaraq Allahı tanıyan bütün insanlara verilən bir xoş mesaj idi. "Biz bu torpağın sahibləriyik. Biz burada Allahın sevdiyi sülhü bərpa edəcəyik", - demək idi. Mehriban xanımın Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məsçidinə, Şuşa məscidinə bağışlaması erməni analarına bir çağırış idi. "Allahınız, kitabınız olsun, durdurun bu qanı. Silahlar yox, ağıllar, düşüncələr danışsın" - demək idi. Bir insanın iç dünyasının, mənəvi düşüncəsinin, milli kimliyinin bundan gözəl təqdimatı ola bilməzdi. İnsanın özünün də Yaradanın bir zərrəsi olduğunun əyani sübutu idi. "Biz bura qurmağa, yaratmağa, dağıdılan hər nə varsa onu bərpa etməyə gəlmişik" - demək idi... Dünya bu təqdimatla niyyətimizi gördü. Dünya bu təqdimatla bizi daha yaxşı tanıdığı üçün hərbi qələbəmizi siyasi müstəvidə də qəbul etdi. Dünya haqqı anladı.

## Qarabağda böyük quruculuq işləri gedir

44 günlük Vətən müharibəsində şanlı qələbənin əldə edilməsi nəticəsində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq işləri aparılmağa başlanmış, o cümlədən erməni vandalizminə məruz qalmış tarixi-dini abidələrin bərpası, yaxud yenidən qurulması sahəsində mühüm addımlar atılmışdır. Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2021-ci ildə Daşaltı və Hadrutda məscidin təməlinin qoyulması, Zəngilanda İmam Hüseyn, Ağdamda Cümə və Qiyaslı məscidlərinin yenidən qurulması işlərinə start verilməsi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa və Saatlı məscidlərinin və Qazançı kilsəsinin bərpa edilməsi Azərbaycan dövlətinin milli-mənəvi, tolerant dəyərləri yüksək qiymətləndirdiyinin göstəricisidir. Biz bütün bunları kimə isə göstərmək, sübut etmək üçün etmirik. Bu dövlətin rəhbəri, millətin lideri bu dəyərlərlə yaşadığı üçün bunları edirik. Bunlar həyat prinsiplərimiz olduğu üçün edirik.

2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyevin Tərtər rayonunun Talış kəndinə səfəri zamanı orada ermənilərin dağıtdığı alban-udi və rus-pravoslav kilsələrində olması, hər iki ibadətgahda təmir və bərpa işlərinin aparılacağını bildirməsi bütün dinlərə tolerant yanaşmanın parlaq ifadəsidir.

2022-ci il martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoydular. Zəngilan məscidinin tikinti işləri ilə tanış olub öz tövsiyələrini verdilər.

İşğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında islam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir, dini abidələrimiz bərpa edilir.

Yeni Günəşlidə Xanım Fatimeyi Zəhra məscidi ilə tanışlıq, Bibiheybət, Təzəpir məscidlərinin təmiri, Şamaxıdakı Pirssat Baba ziyarətgah məscid kompleksinin, Lahıcdakı Bədöyün məscidinin yenidən bərpası Prezident və onun ailəsinin dini mənəvi dəyərlərə qayğısı kimi qəbul edilir.

Azərbaycan bəlkə də dünyanın yeganə dövlətidir ki, burada insanlar arasında dini, irqi ayrı-seçkilik yoxdur. Din əxlaq, həm də ədalətdir. Ölkə ədalətlə, əxlaqla idarə olunur. Din siyasətə qarışmır. Mənəvi dəyər insanlarla Yaradanın arasındakı bağlılıq vasitəsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan "***

Ağcabədi nümunə göstərir







# Yerli idarəetmədə yeniliyin ünvanı

## Dövlətin istəyi reallaşır, vətəndaş məmnun qalır

**Ağcabədi ölkənin böyük iqtisadi potensiala, əmək ehtiyatlarına malik rayonlarındandır. Bu diyarın torpağı münbit, insanları mehriban və əməksevərdilər.**

Rayonun aqrar-sənaye kompleksi yeni texnologiyaların, qabaqcıl təcrübənin, mütərəqqi iş üsullarının yaradıcılıqla tətbiqi sayəsində ildən-ilə güclənir. Təsərrüfatlarda taxıl, pambıq, barama, bostan-tərəvəz, meyvə və heyvandarlıq məhsulları istehsalı getdikcə artır. Torpağa bağlı kəndlilərin həyat şəraiti, dolanışıq səviyyəsi də əhəmiyyətli dərəcədə yaxşılaşır.

Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələri olan pambıqçılığı, taxılçılığı və baramaçılığı inkişaf etdirmək barədə tapşırıq və tövsiyələri Ağcabədi kəndlisinin fəaliyyətinə müasir dövrün tələblərinə uyğun yeni istiqamət verməklə yanaşı, inkişafa əlverişli şərait yaratmış, əhalinin məşğulluğunu yüksək həddə çatdırmışdır.

Bu günlər rayonun təsərrüfatlarında taxıl biçininin qızğın çağıdır. Böyük zəhmət bahasına yetişdirilmiş məhsulu itkiyə vermədən biçib tədarük etmək üçün mövcud texnika və əmək ehtiyatları səfərbər edilmişdir. İldən-ilə genişləndirilən pambıq sahələrində isə kompleks aqrotexniki tələblər səviyyəsində becərmə işləri aparılır, cari təsərrüfat ilinin məhsul bolluğuna etibarlı bünövrə qoyulur.

Ağcabədidə diqqətçəkən, xoş ovqat yaradan başqa məqamlar da yetərincədir. Rayon mərkəzi başdan-başa yaşıllığa, gülə, çiçəyə qərq olub. Şəhərin park və meydanlarında, küçə və prospektlərində səliqə-sahman, təmizlik, abadlıq göz oxşayır. Rayon sakinlərinin asudə vaxtlarını, istirahətlərini mənalı keçirmələri üçün olimpia-idman kompleksində, mədəniyyət müəssisələrində, Ulu Öndərin adını daşıyan şəhər parkında ideal şərait yaradılıb. Əlbəttə, bütün bunlar dövlətin öz vətəndaşına göstərdiyi qayğıkeşlik və diqqətin ifadəsi olmaqla yanaşı, rayon rəhbərliyinin Prezidentin tapşırıq və tövsiyələrinə məsuliyyətli münasibətinin nəticəsidir.

Amma bu yazıda əsas məqsədimiz bütün bu uğurlardan bəhs etmək deyil. Bununla belə mətləbə bir az uzaqdan yanaşmamız da təsadüfi xarakter daşımır. Məlumdur ki, dövlətin öz vətəndaşına ünvanlanan qayğıkeşliyinin hər evə, hər ailəyə çatmasına, onun hər kəsdə məmnunluq doğurmasına nail olmaq yerlərdə idarəetmənin necə təşkil edilməsindən çox asılıdır. Özünün xalqın bir nömrəli xidmətçisi olduğunu dəfələrlə bəyan edən Prezident İlham Əliyev ölkədə vətəndaş-məmur münasibətlərinin yüksək səviyyədə olmasına hər zaman böyük önəm verir.

Dövlət başçısının bu aydın mövqeyi Ağcabədi Rayon İcra Hakimiyyətinin fəaliyyət istiqamətinə aydın konturlar verir. Qarşıya qoyulan vəzifənin icrasına məsuliyyətli münasibət, yaradıcı yanaşma isə son nəticədə gözlənilən uğuru təmin edir. Yerlərdə idarəetmənin təkmilləşdirilməsi vətəndaşla dövlət qurumları arasındakı maneələrin aradan qaldırılması, bu sahədə süründürməçiliyə, bürokratizmə son qoyulması, istənilən dövlət qurumunun vətəndaş üçün əlçatan olması dövlət başçısının mühüm tələbi olmaqla yanaşı, həm də cəmiyyətdən gələn aktual ictimai sifarişdir. Təqdirəlayiqdir ki, Ağcabədi Rayon İcra Hakimiyyəti Prezidentin bu ciddi tələbinə və ictimai sifarişə konkret əməli işlə cavab verir. Vətəndaşların müraciətlərinin operativ cavablandırılması, yerində həll olunması, vətəndaş məmnunluğunun təmin edilməsi üçün Ağcabədi Rayon İcra Hakimiyyətində hələ 2020-ci ilin mart ayında Müraciətlərə Operativ Baxılması Mərkəzi (MOBM) yaradılmışdır. Mərkəzdə ümumilikdə 100-dən çox mövzu ilə bağlı vətəndaş müraciətlərinə operativ baxılması, cavablandırılması və həlli üçün 7 pəncərə üzrə məsul işçilər, könüllülər və operativ işçi qrupu fəaliyyət göstərir. Vətəndaşlar məlumat masasında könüllülər tərəfindən qarşılanaraq məlumatlandırılır, aidiyyəti üzrə pəncərələrə yönləndirilir, həmçinin onları razı və ya narazı salan məsələlərlə bağlı sorğu keçirilir.



Mərkəzdə çalışan hər bir məsul işçi kompüter dəsti ilə təmin olunmuşdur. Burada sosial-iqtisadi və kommunal təchizat, kənd təsərrüfatı və torpaq, ictimai-siyasi və humanitar, hüquq, memarlıq və tikinti, ərazi idarəetmə, qəbul məsələləri ilə bağlı müraciətlərə baxılır. Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov bir qayda olaraq gündəlik vətəndaş müraciətləri ilə tanış olur, aidiyyəti üzrə tapşırıqlar verir, həmçinin müşahidə kameraları ilə mərkəzdəki prosesləri izləyir. Bir sözlə, mərkəzin fəaliyyətinə gündəlik nəzarət edir.

MOBM-in fəaliyyəti müəyyən edilmiş qaydalarla tənzimlənir. Vətəndaş müraciətləri mərkəzin məsul işçiləri tərəfindən elektron qaydada qeydə alınır. Bunun üçün xüsusi proqram hazırlanmış və proqrama rayon icra hakimiyyəti tərəfindən virtual nəzarət edilməklə davamlı təkmilləşmə işləri aparılır. Mərkəzdə məlumat monitoru quraşdırılmışdır ki, onun vasitəsilə vətəndaş müraciət etdiyi mövzu üzrə qanunvericilikdə hansı halların nəzərdə tutulduğunu və mövcud qaydaları izləyə bilir. MOBM-in tərkibindəki operativ işçi qrupu isə müraciət daxil olduqdan dərhal sonra yerində baxılması vacib sayılan məsələlərin həlli və araşdırılması üçün fəaliyyətə başlayır. Operativ işçi qrupu minik avtomobili və planşetlə təmin olunmuşdur. Yerində araşdırılan məsələ ilə bağlı materiallar elektron şəkildə dərhal mərkəzə göndərilir və bunun əsasında vətəndaş müraciəti cavablandırılır.

Mərkəzdə "qaynar xətt" də yaradılmışdır. Edilən müraciətlər həm vətəndaşların özləri tərəfindən şifahi şəkildə, həm də elektron qaydada, eyni zamanda daxil olan zəng və SMS-lərlə qəbul olunur. Cavablar isə həm də vətəndaşın istəyi ilə elektron poçt, vatsap mobil tətbiqi və SMS vasitəsilə göndərilir. Həmçinin "qaynar xətt" və elektron poçt vasitəsilə daxil olan müraciətlər də həmin formada cavablandırılır. Mərkəzdə yaradılan şərait vətəndaşların müraciətlərinin operativ cavablandırılmasında, yerində həll olunmasında, vətəndaş məmnunluğunun təmin edilməsində, vaxt itkisinin, süründürməçiliyin və bir sıra neqativ halların qarşısının alınmasında əhəmiyyətli rol oynayır.

Yaxşı haldır ki, ekstremal şəraitdə belə MOBM-in normal fəaliyyəti təmin edilmişdir. Pandemiya və 44 günlük Vətən savaşı dövründə bazar günləri də daxil olmaqla, MOBM fəaliyyətini dayandırmamışdır. Ümumiyyətlə, fəaliyyətə başladığı dövrdən MOB Mərkəzinə 7639 vətəndaş müraciəti daxil olmuşdur. Təhlillər göstərir ki, müraciətlərin həlli zamanı şəffaflıq 100 faiz təmin edilmişdir. Vətəndaş məmnunluğu isə ayrı-ayrı aylarda 76-81 faiz təşkil etmişdir.

Cari ilin yanvar-may aylarında MOBM-ə 778 vətəndaş müraciəti daxil olmuşdur. Bu müraciətlərdə üstünlük təşkil edən mövzular işsizlik, suvarma suyu, içməli su təminatı, ünvanlı sosial yardım, fərdi yaşayış evlərinin tikintisi, sahibkarlıqla məşğul olmaq istəyi, əkin üçün bələdiyyələrdən torpaq sahələrinin ayrılması, əlillik dərəcəsinin təyin edilməsi, birdəfəlik maddi yardım tələbi və digər məsələlər olmuşdur.

Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə sosial məsələlərin həlli ilə bağlı yaradılmış komissiyanın fəaliyyəti köməyə, qayğıkeşliyə ehtiyacı olan vətəndaşlar tərəfindən minnətdarlıqla qarşılanır.



Bu qayğıkeşlikdən bəhrələnənlərdən biri də Heyvagül Kərimovadır:

- İki övlad anasıyam. Həyat yoldaşım həbs edilib. Qayınanamın həyətində yararsız tikilidə yaşayırıq. İşləmirdim, heç bir gəlirimiz yox idi. Çox çətinliklə dolanırdıq. Rayon icra hakimiyyətinə gedib çətin vəziyyətdə olduğumuzu dedim. Dərhal gəlib vəziyyətimizlə yerində tanış oldular. Sağ olsunlar, dəfələrlə ərzaq yardımı ediblər. "Komxoz" deyilən idarədə işə götürdülər. Uşaqlara məktəbli forması aldılar. Çox razıyam, Allah köməkləri olsun. Ailəmizin gününü, güzəranını yaxşılaşdıran hər kəsə minnətdaram.

MOBM-in tərkibində fəaliyyət göstərən komissiya tərəfindən yerlərdə baxış keçirilən zaman real vəziyyət diqqətlə araşdırılır. Bəzən müraciət edənlərin sosial imkanlarının yaxşı vəziyyətdə olduğu da aşkarlanır. Belə halda həmin şəxslərə yardım olunmasından imtina edilir.

Mərkəzin fəaliyyətində şəhid ailələrinə, qazilərə dəstək və diqqət əsas istiqaməti təşkil edir. Bu qəbildən olan vətəndaşların müraciətlərinə son dərəcə həssaslıqla yanaşılır, onların məmnun qalmaları üçün bütün imkanlar səfərbər edilir. Mərkəzə bu ilin beş ayı ərzində şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları və ehtiyata buraxılmış hərbi qulluqçular tərəfindən 152 müraciət daxil olmuşdur. Müraciətlərin çoxunu işlə təmin olunma, özünüməşğulluq proqramına cəlb edilmə, maddi kömək, mənzil növbəsinə götürülmə, kirayə haqqının verilməsi, əlilliyin müəyyən edilməsi, fərdi yaşayış evinin tikintisi üçün həyətyanı və sahibkarlıq fəaliyyətinə torpaq sahələrinin ayrılması təşkil edir. Bu müraciətlərin böyük əksəriyyəti təmin olunmuşdur. Vətən müharibəsində ağır yaralanmış 5 nəfərin əlil arabası ilə təmin olunmaları barədə müraciətləri əsasında aidiyyəti təşkilatlarla əlaqə yaradılmış və tələbləri ən qısa müddətdə öz müsbət həllini tapmışdır.

Vətən müharibəsi iştirakçıları Camal Məmmədli və Xəyal Nəzərov fərdi yaşayış evlərinin dam örtüklərinin güclü külək nəticəsində ciddi zərər gördüyü barədə mərkəzə müraciət etmişlər. Onların xahişləri rayonun imkanları hesabına təmin edilmiş, evləri keyfiyyətli təmir olunmuşdur. Vətən müharibəsi şəhidi Taryel Atayevin həyat yoldaşı İlhamə Atayevanın rayon icra hakimiyyətinin dəstəyi ilə tikilmiş fərdi yaşayış evinin su təminatı ilə bağlı müraciəti də operativ həll edilmişdir. Bundan əlavə, İlhamə xanımın təqaüdlə bağlı yaranmış probleminə aydınlıq gətirilmişdir. Qeyd edək ki, Ağcabədi rayonundan olan bütün şəhid övladları kimi (onlar 24 nəfərdi), şəhid Taryel Atayevin də balalarına hər ay birdəfəlik maddi yardım ayrılır.

Ağcabədi Rayon İcra Hakimiyyətində yaradılmış Müraciətlərə Operativ Baxılma Mərkəzinin səmərəli fəaliyyətinə aid misalların sayını artırmaq, bu yöndə minnətdarlıq doğuran çoxlu nümunələr göstərmək olar. Lakin biz tək onu deməklə kifayətlənirik ki, işin bu cür təşkili ölkə üzrə yerli idarəetmədə yenilikdir. Hələlik ölkədə ilk olan bu yenilik heç şübhəsiz digər bölgələrdə özünə çox sayda ardıcıllar tapacaqdır. Təbii ki, dövlət və vətəndaş olaraq sonda qazanan biz olacağıq. Beləcə dövlətin sosial siyasətinin reallaşmasına yeni imkanlar açılacaq, qayğıkeşliyə ehtiyacı olan vətəndaş isə razı qalacaq.





*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ

2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz ərazilərini erməni işğalından azad etməsindən sonra ölkəmizin regionda və dünyada nüfuzu durmadan artır. Azərbaycan regionda söz sahibinə çevrilib və Cənubi Qafqazda vəziyyətə özü diktə edir. Təsadüfi deyil ki, bölgədə sülhün bərpası prosesində Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergüc dövlətləri və beynəlxalq təşkilatları tərəfindən qəbul edilməkdədir. Bu isə Azərbaycanın müxtəlif ölkələrlə əlaqələrinə də müsbət təsirini göstərir.

Son dövrlər Azərbaycan ilə Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan arasında münasibətlərdə də canlanma müşahidə olunmaqdadır.

Qeyd edək ki, hələ Sovet İttifaqı dönəmində hər iki xalq arasında mədəni əlaqələr inkişaf edib. Ötən əsrin 30-cu illərində kütləvi repressiyalar zamanı on minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı ilin aprelində dağıdıcı zəlzələdən sonra Daşkəndin bərpasında azərbaycanlılar da yaxından iştirak ediblər. Bu gün 68 minə yaxın azərbaycanlı Özbəkistan cəmiyyətinin sosial, ictimai, iqtisadi və digər sahələrində fəal iştirak edir. SSRİ rəhbərliyi, ələlxüsus Mixail Qorbaçovun hakimiyyəti zamanı Azərbaycan və özbək xalqları məqsədyönlü şəkildə müxtəlif sahələrdə ayrı-seçkiliyin qurbanı olublar. 1989-cu ilin iyununda baş vermiş Fərqanə hadisələri SSRİ rəhbərliyinin, ələlxüsus M.Qorbaçovun türk düşmənçiliyinin bariz nümunəsidir. Hadisələrin əsas səbəbkarı və təşkilatçısı kimi müxtəlif mənbələr tərəfindən SSRİ Dövlət Təhlükəsizlik Komitəsi göstərilib. 20 Yanvar və Sumqayıt hadisələrində eyni dəst-xəti görmək mümkündür. 1918-ci ilin fevral ayında bolşeviklərin dəstəyi ilə Daşnaksütyun partiyasının hərbi qanadı tərəfindən Kokand vilayətində özbəklərə qarşı soyqırımı törədilib. Təkcə 3 gün ərzində Kokand şəhərində 10 minə yaxın dinc sakin qətlə yetirilib. Ümumilikdə həmin hadisələr zamanı 35 minə yaxın özbək öldürülüb. "Uluf Turkiston" qəzetində: "Ermənilər xüsusilə fərqlənirdi..." deyə qeyd olunub. Hazırda çoxsaylı erməni icmasının yaşamasına baxmayaraq, Özbəkistanda Ermənistan səfirliyi və Ermənistanda Özbəkistan səfirliyi fəaliyyət göstərmir.

AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 21-22-də Özbəkistana nəzərdə tutulan dövlət səfəri zamanı müzakirə olunacaq məsələlərə və ümumilikdə Mərkəzi Asiya ölkələri ilə, o cümlədən Özbəkistanla əlaqələrə bir daha nəzər salır.

Qeyd etdiyimiz kimi, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfərinin gündəliyinə Özbəkistan-Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və çoxşaxəli əməkdaşlığın genişləndirilməsi məsələləri daxildir. Səfər zamanı keçiriləcək görüşlərdə iki dövlətin liderləri qarşılıqlı ticarətin həcminin artırılmasına, biznes və regional səviyyədə əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə, iqtisadiyyatın müxtəlif sahələrində birgə investisiya layihələrinin təşviqinə, nəqliyyat və tranzit sektorunda imkanlardan səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirəcəklər.

Bundan əlavə, dövlət başçıları beynəlxalq və regional vəziyyətlə bağlı fikir mübadiləsi aparacaq, çoxtərəfli strukturlar çərçivəsində intensiv dialoqun və qarşılıqlı dəstəyin inkişafı məsələlərini müzakirə edəcəklər.

Səfər zamanı bir sıra mühüm sənədlərin imzalanması da nəzərdə tutulur. Həmin sənədlər arasında "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" xüsusi vurğulanmalıdır.

Qeyd olunmalıdır ki, dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi "orta dəhliz"in əhəmiyyəti artmaqdadır. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq ölkəmizdə bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və Azərbaycan beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Yuxarıda qeyd olunanlar Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan yükdaşımaların həcminin daha da artmasına təkan verəcək.

Xatırladaq ki, ölkələrimizin diplomatik münasibətlərinin 1995-ci il oktyabrın 2-də qurulmasına baxmayaraq, Azərbaycan və özbək xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Təsadüfi deyil ki, dahi özbək mütəfəkkiri Əlişir Nəvai öz "Xəmsə"sini Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə alıb.

Özbəkistanın sabiq Prezidenti İslam Kərimov dövlətlərimiz və xalqlarımız arasında mədəni əlaqələrə toxunaraq demişdir ki, Daşkənd və Bakı şəhərlərində dahi əcdadlarımız Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin açılması, Azərbaycan paytaxtının küçələrindən birinə dünyaşöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında tarixən mövcud olan qarşılıqlı marağın və hörmətin parlaq nümunələridir.

Bakıda, İçərişəhərdə yerləşən, XV əsrə aid Buxara karvansarası Mərkəzi Asiyadan gələn tacirlər tərəfindən inşa edilib. XVI-XVII əsrlərdə yaşamış Azərbaycan filosofu, şairi və böyük din xadimi, əslən Qarabağdan olan Yusif ibn Məhəmmədcan Qarabağinin qəbri Özbəkistanın Səmərqənd şəhərində yerləşir. Bu faktlar münasibətlərimizin keçmişindən xəbər verir və göstərir ki, hələ XV əsrdə xalqlarımız arasında ticarət əlaqələri və elmi mübadilə mövcud olub.

Ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra - 1996-cı ilin ortalarında Azərbaycanın Özbəkistanda, 1998-ci ilin mayında Özbəkistanın Bakıda səfirlikləri fəaliyyətə başlayıb.

Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır. Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb.

1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının IV Forumunda və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub.

1997-ci il iyunun 18-19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Özbəkistana rəsmi səfərini isə münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Həmin səfər zamanı Daşkənddə ölkələrimiz arasında 19 sənəd imzalanıb. Bu sənədlər içərisində "Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə" böyük əhəmiyyət kəsb edir. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün möhkəm fundamental hüquq-müqavilə bazası yaradıb. Sənədlərin imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev deyib: "Biz Azərbaycanda Özbəkistanla etibarlı tərəfdaşlıq münasibətlərinə malik olmaq istəyirik və hər şey edəcəyik ki, bu münasibətlər olsun, onlar inkişaf edib möhkəmlənsin". Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov isə bildirib: "İki ölkə arasındakı münasibətlər məhz strateji əməkdaşlıq səciyyəli olacaqdır".

Ölkələrimiz arasında cari münasibətlərin strateji istiqamətləri məhz yuxarıda qeyd etdiyimiz iki səfər (Özbəkistan Prezidenti İslam Kərimovun 1996-cı ildə Azərbaycana və Ümummilli Lider Heydər Əliyevin 1997-ci ildə Özbəkistana səfərləri) zamanı müəyyən edilib.

2004-cü il martın 23-24-də Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərində olub. Səfər zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Strateji münasibətlərin əsasını qoyan həmin sənəddə bildirilir ki, tərəflər keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdiklərini ifadə edirlər. Təsadüfi deyil ki, Özbəkistan BMT Baş Assambleyasında 2008-ci il martın 14-də səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub.

Özbəkistan keçmiş Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edib. Həmin ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəb inşa ediləcəyini bildirib. Artıq bu istiqamətdə işlərə başlanılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin Özbəkistana cari dövlət səfəri zamanı 19 sənədin imzalanması nəzərdə tutulur. Bu səfər 25 il əvvəl Ümummilli Lider Heydər Əliyevin Özbəkistana səfərinin tarixi ilə üst-üstə düşür.

Sonda qeyd etmək yerinə düşər ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətləri təkcə Özbəkistanla yekunlaşmır. Qırğız Respublikasının Prezidenti 2022-ci ilin aprel ayında Azərbaycana səfər edib. Səfər zamanı "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyənnamə"nin imzalanması iki ölkə arasındakı münasibətləri strateji səviyyəyə yüksəldib.

Həmçinin Qazaxıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Təsadüfi deyil ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin yaxın vaxtlarda Azərbaycana səfəri nəzərdə tutulur.

Bundan başqa, Türkmənistan və Tacikistanla son dövrlər intensiv məktub mübadiləsi həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın yeni seçilmiş Prezidenti Sərdar Berdiməhəmmədovu Azərbaycana səfərə dəvət edib.

# Büdcə dəyişiklikləri nədən xəbər verir?

## Neftin qiymətinin 85 dollar müəyyən edilməsi ilə iqtisadiyyatın digər sahələrinin daha da aktivləşməsi təmin ediləcək

2022-ci ilin dövlət büdcəsində neftin bir barelinin qiyməti 85 dollar müəyyən edilib. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında cari ilin büdcəsinə təklif edilən dəyişikliklər layihəsinin müzakirəsi zamanı komitə sədri Tahir Mirkişili deyib.

Xatırladaq ki, bundan öncə büdcədə neftin bir barelinin qiyməti 50 dollar müəyyən edilmişdi. Lakin qlobal miqyasda davam edən proseslər və enerji resursları ilə bağlı qiymət gözləntiləri yüksələn xətlə davam etdi. Eyni zamanda dünya bazarında "Azeri Light" markalı neftin qiyməti də bahalaşdı. Bir neçə ayda neftin qiyməti müəyyən günlərdə rekord həddə çatdı. Ötən il təsdiqlənən dövlət büdcəsində neftin qiyməti 50 dollar götürülsə də, gedən proseslər fonunda "Azeri Light" markalı xam neftin bir barelinin orta ixrac qiyməti 106,3 ABŞ dollarına bərabər oldu ki, bu da dövlət və icmal büdcələrinin gəlirlərinin hesablanması üçün istinad götürülən qiyməti 2 dəfədən artıq üstələdi.

### Büdcəyə ediləcək dəyişiklik sosial paketin maliyyələşdirilməsinə töhfə verəcək

İlk dəfə olaraq bu ilin 5 ayı ərzində Azərbaycanın neft ixracından əldə etdiyi valyuta gəlirləri ilə qaz ixracından əldə etdiyi gəlirlər, demək olar ki, bərabərləşib. Bununla da 2022-ci ilin beş aylıq fiskal icra göstəriciləri və dünya neft bazarlarında müşahidə edilən dinamika makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsi üçün əsas yaratdı.

Beləliklə, 2022-ci ilin dövlət büdcəsinə ediləcək dəyişiklikdə xam neftin bir barelinin orta illik ixrac qiymətinin 85 ABŞ dollar, orta illik inflyasiyanın isə 12,5 faiz səviyyəsində götürülməsi təklif olunur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, 2022-ci ilin dövlət büdcəsinə əlavə dəyişikliklərin edilməsinin əsas səbəbi neftin dünya bazarında qiymətinin yüksək olması, eyni zamanda qeyri-neft sektorundan daxilolmaların artmasıdır. Deputat bildirir ki, qeyri-neft sektorundan da proqnozlaşdırılandan daha çox vəsaitin büdcəyə daxil olması müşahidə olunub ki, bu da bütövlükdə büdcə xərclərinə, gəlirlərə yenidən baxılmasını gündəmə gətirib. Büdcəyə edilən dəyişikliklər xərclərin artmasına səbəb olur ki, bu da bir sıra istiqamətlərə vəsaitlərin ayrılması üçün maliyyə bazası formalaşdırır. Vüqar Bayramovun sözlərinə görə, Dövlət Sosial Müdafiə Fondunun təsdiq olunmuş gəlirləri 300 milyon manata yaxın artıb. Bu vəsait Prezidentin fevral və mart aylarında imzaladığı sosial tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunacaq: "Bu, sosial paketin maliyyələşdirilməsinə töhfə verəcək və onun genişləndirilməsinə imkan verəcəkdir".

Çox mühüm məqamlardan biri də iqtisadi fəaliyyət üzrə xərclərin artırılması və təxminən yarım milyard manata yaxın vəsaitin işğaldan azad olunmuş ərazilərin bərpa və yenidənqurulma işləri üçün yönəldilməsidir.

Deputat vurğulayır ki, bu, xüsusən, Qarabağ və Şərqi Zəngəzurda daha qısa zamanda bərpa və yenidənqurma işlərinin aparılmasına, Böyük qayıdış planının daha tez reallaşmasına və ərazilərin bərpasına daha çox vəsaitin ayrılmasına imkan verəcək: "Azərbaycan 2021-2022-ci illərdə işğaldan azad olunmuş ərazilərin bərpası üçün yalnız dövlət büdcəsindən 5 milyard manata yaxın vəsait ayırıb. Bu isə ondan xəbər verir ki, mövcud maliyyə resurslarımız işğaldan azad olunmuş ərazilərin öz vəsaitlərimiz hesabına bərpasına imkan verir".

Deputat qiymətlərin optimallaşdırılması və dünya bazarında müşahidə edilən qiymət artımının Azərbaycanın istehlak bazarına təsirinin minimallaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsinin vacib olduğunu deyir. Bu tədbirlər sırasında sahibkarların dəstəklənməsi, minimum istehlak səbətinə daxil olan məhsulların istehsalı ilə məşğul olan sahikarlarla bağlı yeni güzəşt mexanizmlərinin təklif edilməsi var. Bu da yerli istehsalın genişləndirilməsinə, həm də qiymətlərin optimallaşdırılmasına xidmət edəcək.

### Əhalinin gəlirləri daha yuxarı həddə formalaşacaq

İqtisadçı ekspert Eldəniz Əmirov isə 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılmasına imkan yaradan əsas faktorun neft və dövlət gəlirlərinin təsdiq olunmuş göstəricidən 2 milyard manatdan daha yuxarı formalaşacağı proqnozunun olduğunu qeyd edir. Ekspert bildirir ki, ümumilikdə gəlirlərin 53,2 faizi məhz neft sektorunun, 46,8 faizi isə qeyri-neft sektorunun payına düşür. Neft gəlirlərinin təxminən 15 milyard 540 milyon manata yaxın olacağı proqnozlaşdırılır.

Eldəniz Əmirov vurğulayır ki, neft gəlirlərinin yuxarı səviyyədə olması dövlət büdcəsinə yenidən baxılması üçün geniş fürsətlər verib. Bütövlükdə dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri-neft sektorunun xüsusi çəkisində artım müşahidə olunsa da, neft faktorlarının daha önəm daşıması qaçılmazdır, çünki neft sektoru birbaşa statistik təhlillər zamanı gördüyümüz rəqəmlərlə yekunlaşmır, eyni zamanda qeyri-neft sektorunda olan canlanmaların da baş verməsi üçün zəmin yaradır. Neftdən gələn gəlirlər hesabına iqtisadiyyatın digər sahələrində də aktivlik təmin olunur.

Ekspert deyir ki, Azərbaycanın ötən il təsdiq olunmuş 2022-ci il dövlət büdcəsinin 26,8 milyard manatlıq gəlirlərinin 8,9 faiz artaraq 29,2 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Dövlət xərclərinin isə 29,8 milyard manatdan 8,1 faiz artaraq 33,3 milyard manat həcmində olacağı pronozlaşdırılır.

İqtisadçının fikrincə, neft qiymətlərinin qalxması səbəbindən büdcədə olan dəyişiklik, bundan dolayı əsaslı və cari xərclərin artması iqtisadiyyatın digər sahələrində də aktivliyin qorunub saxlanmasına, dövlət investiya layihələrinin reallaşmasına imkan verəcək. Bu layihələrin həyata keçirilməsi məşğulluğun təmin olunmasında, əhalinin gəlirlərinin daha yuxarı həddə formalaşmasında mühüm rol oynayacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Medianın İnkişafı Agentliyi Venesiya Komissiyasının "Media haqqında" qanuna dair rəyinə münasibət bildirib

İyunun 20-də Avropa Şurasının Venesiya Komissiyası "Media haqqında" Azərbaycan Respublikası Qanununa dair rəyini öz rəsmi veb-saytında yerləşdirib.

Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən rəydə qeyd olunan məsələlərlə bağlı rəsmi mövqe yazılı şəkildə Venesiya Komissiyasına təqdim edilib və bu arqumentlərin bir qismi bu və ya digər formada yekun rəydə öz əksini tapıb.

Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, qanun layihəsi heç də rəydə qeyd olunduğu kimi "seçilmiş qruplarla" yox, cəmiyyətin müxtəlif seqmentlərindən olan media nümayəndələri və ekspertlərin iştirakı ilə dəfələrlə müzakirə olunub.

Keçmiş müvafiq qanundan fərqli olaraq "Media haqqında" qanun "jurnalist" anlayışı ilə bağlı beynəlxalq təcrübəyə istinad edərək bu fəaliyyətə daha geniş prizmadan yanaşıb, yalnız ölkə daxilində deyil, həm də ölkə xaricində Azərbaycan jurnalistlərinin peşəkar fəaliyyətinin məhdudiyyətlərdən qorunmasına yönəlib. Qanun fəaliyyəti Azərbaycan Respublikasının ərazisinə və əhalisinə istiqamətlənmiş media subyektlərinin müdafiə mexanizmlərindən istifadəsinə şərait yaradır, həmçinin fövqəladə vəziyyətlərdə jurnalistlərin təhlükəsiz şəraitdə peşə borclarını yerinə yetirməsini təmin edir.

Rəydə "zorakılıq" elementi olmadığı təqdirdə dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş çağırışların dəstəklənməsi tərəfimizdən heç bir halda qəbul edilə bilməz. Uzun illər işğalçı siyasətin və terrorun qurbanı olan, ərazi bütövlüyü pozulmuş bir ölkəyə qarşı belə yanaşma hüququn aliliyi, jurnalist peşəkarlığı və xalqımızın milli maraqları ilə bir araya sığmır.

Rəydə iddia edildiyi kimi, qanunun media subyektinə dair tələblərinin (maddə 26) başa düşülməsində hər hansı çətinlik mövcud deyildir. 26-cı maddə hər hansı mədəniyyət abidəsinə zərər vurduğuna görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxsləri deyil, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə məhkum olunmuş şəxsləri əhatə edir və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu kateqoriya cinayətlər (cinsi zorakılıq, irqi ayrı-seçkilik, seksual xarakterli zorakılıq hərəkətləri və s.) konkret olaraq təsbit edilib.

Qanunda media subyektlərinin xarici şəxslər tərəfindən təsis edilməsi və xaricdən maliyyələşdirilməsi qətiyyən istisna edilmir. Belə olan halda, sadəcə, nizamnamə kapitalında pay nisbəti müəyyənləşdirilir, çap mediası və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün şəxsin agentliyə məlumat verməsi icazə deyil, bəyanetmə xarakteri daşıyır ki, bunu lisenziya proseduru ilə eyniləşdirmək əsassızdır.

Media Reyestrinə daxil edilmək üçün jurnalistlərə qoyulmuş tələblərin şərhi zamanı çox önəmli bir nüansın diqqətdən qaçırıldığı, reyestrin onlar üçün könüllü olduğu, reyestrə daxil edilməmiş jurnalistlərə münasibətdə hər hansı məhdudlaşdırmanın tətbiqinin müzakirə mövzusu olmadığı bildirilib.

Fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli şəxslərin dairəsi izah edildikdən sonra Venesiya Komissiyası bu məsələ ilə bağlı MEDİA Agentliyinin yanaşmasını qəbul edib.

Qanunun 15.1.3-cü və 15.1.4-cü maddələrinin hər hansı cinayət hadisəsinə dair bütün məlumatları deyil, yalnız və yalnız ibtidai araşdırma məlumatlarını nəzərdə tutduğu ətraflı şəkildə izah olunub, nəticədə Venesiya Komissiyasının bu maddələrlə bağlı yanaşması daha adekvat şəkildə ifadə edilib.

Təəssüflə vurğulayırıq ki, bəzi media subyektlərinin komissiyanın rəyində əks olunmuş fikirləri kontekstdən çıxararaq təqdim etməsi ictimai fikirdə çaşqınlıq yaratmağa hesablanıb və Azərbaycanda həyata keçirilən media islahatlarına tendensiyalı münasibətin nəticəsidir. Venesiya Komissiyasının öz rəyində qanunun bir çox maddələrini müzakirə predmetinə çevirməməsi, MEDİA Agentliyinin mövqeyi ilə uzlaşan yanaşma sərgiləməsi təqdirəlayiqdir və beynəlxalq təşkilatla səmərəli dialoqun göstəricisidir.

# Forum iştirakçıları muxtar respublikanın gəzməli yerləri ilə tanış olublar





Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibbi Forumun iştirakçılarının növbəti gəzintisi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə forum iştirakçıları Duzdağ Fizioterapiya Mərkəzinə gəliblər. Mərkəzlə tanışlıq zamanı məlumat verilib ki, 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıq və ləvazimatlarla təchiz edilib.

Qeyd olunub ki, aparılan araşdırmalar və duzun tərkibinin öyrənilməsi ilə bağlı elmi-tədqiqatların nəticəsi Naxçıvan Fizioterapiya Xəstəxanasının işinin müasir tələblər səviyyəsində qurulması zərurəti yaradıb. 2008-ci ildə Ali Məclis Sədrinin tapşırıqlarına uyğun olaraq bu səhiyyə ocağı Duzdağ Fizioterapiya Mərkəzinə çevrilib, bronxial-astma və ağciyər xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün 474 çarpayılıq yeraltı və yerüstü hissədə hər cür şərait yaradılıb. Duzdağ Fizioterapiya Mərkəzinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin hazırkı Prezidenti, o zaman Baş nazir olan Rəcəb Tayyib Ərdoğan da iştirak ediblər.

Həkimlərin xüsusi marağına səbəb olan Duzdağ Fizioterapiya Mərkəzi qonaqlarda yüksək təəssürat yaradıb.

Gəzinti Möminə Xatun türbəsi, Xan Sarayı və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıqla davam edib. Möminə Xatun türbəsi ilə tanışlıq zamanı bildirilib ki, islam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən olan Möminə Xatun türbəsi 1186-cı ildə tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə qalan abidənin baş tağında kufi xətti ilə yazılan bu sözlər diqqət çəkir: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".



Qonaqlar Batabat yaylağında da olublar.

Batabat yaylağının ecazkar gözəlliyi, füsunkar təbiəti qonaqlarda xoş təəssürat yaradıb. Onlar sonra məşhur Zorbulağa gəlib, Batabat gölünə baxıblar.

Gəzinti "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə başa çatıb. Qeyd olunub ki, ziyarətgahın adı "mağara sahibləri" mənasını verir. Müqəddəs Qurani-Kərimdə "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yuxuya getməsindən, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb. Adıçəkilən mağaranın dünyanın digər ölkələrində olduğu güman edilib. Ancaq son dövrlərdə aparılan araşdırmalar sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Əshabi-Kəhflə bağlı rəvayətləri maraqla dinləyən qonaqlar ziyarətgahı gəziblər.

# Qəbələnin kəndində şəhidin adını daşıyan küçə abadlaşdırılıb

Qəbələdə ərazi bütövlüyümüz uğrunda canını fəda etmiş şəhidlərin ailələrinə daim diqqət və qayğı göstərilir, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər görülür.



Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, belə tədbirlərin davamı olaraq Qəbələnin Tüntül kəndində Vətən müharibəsi şəhidi Rüstəm Atakişiyevin adını daşıyan küçəyə və şəhidin xatirəsinin əbədiləşdirilməsi üçün inşa edilən bulaq kompleksinin ətrafına yeni asfalt örtüyü çəkilib, abadlıq işləri aparılıb.

Sakinlər görülən işləri yüksək qiymətləndirərək minnətdarlıqlarını bildiriblər.

# DSX-nin Sahil Mühafizəsində "Vətən müharibəsindəki qələbəmizdə xalqımızın milli-mənəvi dəyərlərinin rolu" mövzusunda seminar keçirilib

Dövlət Sərhəd Xidməti (DSX) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq, iyunun 21-də DSX-nin Sahil Mühafizəsində "Vətən müharibəsindəki Qələbəmizdə xalqımızın milli-mənəvi dəyərlərinin rolu" mövzusunda növbəti seminar keçirilib.



Xidmətin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə tədbir iştirakçıları Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularının xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib və abidə önünə gül dəstələri düzüblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək dini və etnik zənginliyə malik xalqımızın tolerantlıq ənənələrini dövlət siyasətində uğurlu inkişaf etdirildiyini, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsini özündə təcəssüm edən azərbaycançılıq məfkurəsinin ölkəmizin tərəqqisində müstəsna rolu xüsusi olaraq qeyd edilib.

Tədbirdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin multikulturalizm, tolerantlıq dəyərləri təbliğ edən ölkələrdən olması, milli-dini birlik ideyasının ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirildiyi, hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunmasına dəstək göstərildiyi bildirilib.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə döyüşmələri, "dəmir yumruq" ətrafında həmrəylik nümayiş etdirmələrinin bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsi olması vurğulanıb.

Seminarda ölkəmizdəki tolerantlıq ənənələrinə, dini etiqadı siyasiləşdirməklə milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə təhlükə yarada bilən meyillərlə mübarizədə hər bir vətəndaşın həssaslıq göstərməsinin vacibliyi qeyd olunub.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hazırladığı "Heydər Əliyev və azərbaycançılıq" sənədli filmi şəxsi heyətə nümayiş etdirilib.

# Şahdağ Milli Parkında daha bir zubr balası dünyaya gəlib

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan ofisi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində Azərbaycana gətirilən zubrlardan daha birinin balası dünyaya gəlib.



AZƏRTAC xəbər verir ki, bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva bildirib.

O, qeyd edib ki, zubr balalarının sayı 6-ya çatıb: "Dünyaya gələn ikinci dişi fərd heyvanların populyasiyasının artımına müsbət töhfə verəcək. Bala sağlamdır, yerli şəraitə uyğunlaşaraq sürüyə qoşulub".

Xidmət rəsmisinin sözlərinə görə, IDEA İctimai Birliyi ilə Şahdağ Milli Parkı arasında imzalanmış əməkdaşlıq sazişinə əsasən, nəsli kəsilmiş zubrların bərpası, onların ölkə təbiətinə reintroduksiya olunması və artırılması məqsədilə 2019-cu ilin mayında Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisinə Avropadan 12, 2020-ci ildə isə daha 5 baş zubr gətirilərək təbiətə buraxılıb.

# İşğaldan azad olunmuş ərazilərə qoyunçuluq və arıçılıq təsərrüfatlarının köçürülməsi davam edir

Kəlbəcər rayonunda heyvandarlığın inkişafı üçün böyük potensial mövcuddur. Yaylaqlarda son dərəcə zəngin bitki örtüyü və yem ehtiyatı mövcuddur. İşğaldan əvvəlki dövrdə bu yaylaqlar Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən təsərrüfatların əsas köç yeri olub.



AZƏRTAC xəbər verir ki, 30-dan çox rayonun təsərrüfatları mövsüm ərzində Kəlbəcərin Sarıyer, Söyüdlü, Qoşdaş yaylaqlarına köç edib. Torpaqlarımız işğaldan azad edildikdən sonra artıq ikinci ildir ki, qoyunçuluq təsərrüfatlarının Kəlbəcər yaylaqlarına köçü təşkil olunur.

Aqrar Xidmətlər Agentliyinin əməkdaşları Kəlbəcər və Laçın yaylaqlarına köçürülmüş qoyunçuluq təsərrüfatlarında monitorinqlər keçirirlər. Məqsəd yaylaqlardakı sürülərin ümumi vəziyyətinə baxış keçirmək və müalicəyə ehtiyacı olan heyvanlara yerində baytarlıq yardımı göstərməkdir. Baytar həkimlər qrupunun iştirakı ilə ilk monitorinq Kəlbəcər rayonunun Sarıyer yaylağında keçirilib.



Azad olunmuş ərazilərə köçlə əlaqədar təsdiqlənmiş reqlamentə əsasən, yaylaqlara gedəcək sürülərdə heyvan xəstəliklərinin profilaktikası ilə əlaqədar müvafiq preventiv tədbirlər görülüb. Xüsusi təhlükəli xəstəliklərə qarşı peyvəndləndikdən sonra heyvanların köçünə icazə verilib.

Aqrar Xidmətlər Agentliyinin sədr müavini Bayandur Rzayev bildirib ki, təsərrüfatlarda bütün baytarlıq tədbirləri, o cümlədən peryvəndləmə işləri həyata keçirilib: "Köç ərəfəsində preventiv tədbirlər tam şəkildə başa çatdırılıb. Heyvanlarda xüsusi təhlükəli xəstəliklərə, o cümlədən dabaq, qarayara və digər xəstəliklərə qarşı vaksinasiya işləri aparılıb. Sürülər yaylağa qalxmazdan əvvəl heyvanlar üzərində olan qan-parazitar xəstəlik daşıyıcılarının yaylaqlara daşınmasının qarşısını almaq üçün xüsusi yuyulma vannalarından keçirilib. Həkim heyəti sürülərin ümumi vəziyyətinə baxış keçirir. Ümumi müayinədən sonra müalicəyə ehtiyacı olan heyvanlara baytarlıq yardımı göstərilir. Hesab edirik ki, Kəlbəcər yaylaqlarının təbiəti, zəngin ot ehtiyatı, minerallarla zəngin suları bu təsərrüfatlarda məhsuldarlığın artmasına kifayət qədər təsir göstərmiş olacaq". Ötən il pilot layihə çərçivəsində ilk dəfə Kəlbəcər yaylaqlarına 10 min başa yaxın xırda və iribuynuzlu heyvanın köçürülməsi təmin edilmişdi. Bu il isə yaylaqlara 300 mindən çox heyvan aparılıb. 2022-ci ildə azad olunmuş bütün ərazilərdən olan rayonların fermerlərinə öz qoyunçuluq təsərrüfatlarını Kəlbəcər və Laçın yaylaqlarına aparmağa icazə verilib.

Hazırda Kəlbəcər və Laçın yaylaqlarına qoyunçuluq və arıçılıq təsərrüfatlarının köçürülməsi davam edir.







## ◆ Dünya gündəmi

# Ankaranın mövqeyi dəyişməzdir

### İsveç və Finlandiya Madrid sammitində NATO-ya qoşulmayacaq



Türkiyə, İsveç və Finlandiya liderləri Madriddə keçiriləcək sammitədək konsensusa gələ bilməyəcəklər. Bu barədə Ankara və Stokholmdakı mənbələrə istinadən aparıcı kütləvi-informasiya vasitələri xəbər verir.

Son məlumatlara görə, dünən Ankaranın İsveç və Finlandiya ilə Brüsseldə keçirilmiş danışıqlarının növbəti raundu müəyyən irəliləyiş əldə etməyə imkan verib, lakin bütün fikir ayrılıqlarını hələ aradan qaldırmayıb.

Bundan başqa, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO sammitində alyansa namizəd ölkələrin Suriyadakı terrorçu kürd birləşmələrinə dəstəyini, o cümlədən silah-sursatla təminat verdiyini sübuta yetirən sənədləri təqdim etməyə hazırlaşır.

R.T.Ərdoğan Skandinaviya ölkələrini terrorçular üçün "inkubator" hesab edir və onun dediyinə görə, İsveç PKK-nın evinə çevrilib. Türkiyə hakimiyyəti haqlı olaraq Helsinki və Stokholmdan PKK üzvlərini onlara təslim etməyi və ərazilərində onlarla əlaqəli bütün strukturları bağlamağı tələb edir.

### Helsinki terrorçuları Türkiyəyə təhvil verməyib

STT agentliyinin xəbərinə görə, Türkiyə 2019-cu ildən bəri Finlandiyaya ekstradisiya ilə bağlı 10 sorğu göndərib, lakin Helsinki yalnız iki nəfərin ekstradisiyasına razılıq verib. Həmin şəxslərin isə FETÖ və ya PKK ilə əlaqəsi olmayıb.

Finlandiyanın "İlta Sanomat" qəzeti yazır ki, Helsinki terrorçu kimi tanınan FETÖ və ya PKK ilə əlaqəli olan şəxslərin Türkiyəyə ekstradisiyasına razılıq verməyib.

Ümumilikdə, iyunun əvvəlinə qədər Helsinki 2019-cu ildən Ankaranın ekstradisiya ilə bağlı göndərdiyi on sorğudan yeddisi ilə bağlı qərar qəbul edib.

### 5 saat davam edən danışıqlar

Finlandiya Prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Petri Hakkaraynenin dediyinə görə, Brüsseldə Ankara, Helsinki və Stokholm nümayəndələri arasında danışıqlar 5 saata yaxın davam edib. Ölkələr bəzi məsələlərdə razılığa gəliblər, digərləri üzrə isə müzakirələr davam edəcək.

Öz növbəsində Türkiyə Prezidentinin rəsmi nümayəndəsi İbrahim Kalın hadisələrin gələcək inkişafının İsveç və Finlandiyanın hərəkətlərindən asılı olacağını vurğulayıb.

Bundan əvvəl güman olunurdu ki, İsveç və Finlandiyanın NATO-ya üzvlük üçün mayın 18-də təqdim etdiyi müraciətlər iyunun 29-30-na planlaşdırılan Madrid sammitində təsdiqlənəcək. Daha sonra NATO-nun baş katibi Yens Stoltenberq bildirib ki, qarşıdan gələn tədbir iki ölkənin alyansa qoşulması üçün son tarix olmayacaq.

### Türkiyənin mövqeyinə ciddi münasibət göstərilməlidir

Stoltenberq jurnalistin NATO-nun Türkiyənin bu iki ölkənin zirvə görüşündə qəbulu ilə bağlı etirazlarını aradan qaldıra billəcəyi ilə bağlı sualına cavabında deyib ki, Madriddə iki ölkənin alyansa üzvlüyü ilə bağlı yekun qərar verilməyəcək. Şimali Atlantika Alyansının başçısı Ankaranın narahatlığının tamamilə qanuni olduğunu və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın bu məsələ ilə bağlı mövqeyinə ciddi münasibət göstərilməsinin vacibliyini vurğulayıb.

Ankara danışıqlara razılıq verməzdən əvvəl PKK-nın terrorçu fəaliyyəti ilə əlaqədar Helsinki və Stokholmdan "konkret təkliflər" tələb edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir daha bildirib ki, Türkiyə hər iki ölkənin Şimali Atlantika Alyansına üzvlüyünə münasibətini bu ölkələr terrorizmlə mübarizədə "aydın, konkret və qətiyyətli addımlar" atmayınca dəyişməyəcək. Bundan əvvəl isə Türkiyə lideri artıq İsveç və Finlandiyanı alyansa qoşulmaq üçün NATO ilə danışıqlara vaxt itirməməyə çağırıb.

Xatırladaq ki, İsveç və Finlandiya NATO-ya üzv olmaq barədə qərarlarını Rusiyanın Ukraynada hərbi əməliyyata başlamasından sonra elan etmişdilər.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
struktur idarələrinə tələb olunan polad təbəqələrin
satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 iyul 2022-ci il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
struktur idarələrinə tələb olunan laminat təbəqələrin
satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 04 iyul 2022-ci il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
"Dənizçi" MTK-nın yüksəkmərtəbəli yaşayış binalarının tikintisi obyektində
beton svayların dağıdılması və binaların diafraqma divarlarında
beton kəsilməsi xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 iyul 2022-ci il saat 17:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

# "Azercell" məhsulları artıq "Azərpoçt" məntəqələrində

## "Azərpoçt"un Bakı və Abşeron məntəqələrində təqdim edilən "Azercell" xidmətləri yaxın gələcəkdə bütün şöbələrdə mümkün olacaq

**"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə sadiq qalan ölkənin lider mobil operatoru "Azercell Telekom" abunəçiləri üçün rahat bağlantını təmin etmək məqsədilə mobil operatorlar arasında ilk dəfə olaraq "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyət ilə yeni formatda əməkdaşlığa başlayır.**




Belə ki, hazırda Bakı və Abşeron üzrə "Azərpoçt" məntəqələrində "Azercell"in ödəmə kartları və digər xidmətlərinin göstərilməsi artıq təmin olunub. Xidmətlərin gələcəkdə bütün ölkəni əhatə etməsi nəzərdə tutulur. Qeyd edək ki, həmin məntəqələrdə xüsusi təlim keçmiş "Azərpoçt" əməkdaşları abunəçilərin "Azercell" xidmətləri ilə bağlı suallarını cavablandıracaq, bir çox müştəri əməliyyatlarını həyata keçirə biləcəklər.

Paytaxt və bölgələr boyu fəaliyyət göstərən "Azercell" Müştəri Xidmətləri Mərkəzləri, "Azercell" Eksklüziv ofisləri, və "Azercell"in rəsmi diler məntəqələrində abunəçilər üçün mümkün olan xidmət çeşidləri yaxın zamanda "Azərpoçt" məntəqələri vasitəsilə də vətəndaşlara təqdim ediləcək.

Xatırladaq ki, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti əhaliyə ənənəvi poçt xidmətləri, bank, sığorta və sair kimi qeyri-ənənəvi xidmətlər, elektron ödənişlər, depozitlər və s. kimi maliyyə xidmətləri, eləcə də elektron hökumət və biznes xidmətlərini təqdim edir. Ölkəmizin ən qədim rabitə qurumu olan "Azərpoçt" ilə ölkənin aparıcı mobil rabitə operatoru "Azercell Telekom"un əməkdaşlığı hər iki təşkilat üçün əhaliyə daha rahat və keyfiyyətli xidmət göstərməyə imkan yaradacaq.

# "Buta Airways" aşağıbüdcəli aviaşirkəti Rusiyaya daha bir istiqamət üzrə uçuşları bərpa edir

"Buta Airways" aşağıbüdcəli aviaşirkəti iyul ayında Bakıdan Moskva ətrafı "Jukovski" hava limanına uçuşları bərpa edir.




"Buta Airways" aviaşirkətinin Mətbuat xidmətindən verilən məlumata görə, 1 iyul tarixindən etibarən bu istiqamətə və geriyə uçuşlar həftədə iki dəfə - cümə və bazar günləri həyata keçiriləcək.

Qeyd edək ki, "Buta Airways" aviaşirkətinin Bakıdan Rusiyanın şəhərlərinə bərpa olunmuş uçuşlarının siyahısına Həştərxan (cümə axşamı və bazar günləri), Mineralnıye Vodı (çərşənbə axşamı və bazar günləri), Kazan (çərşənbə və şənbə günləri) və Ufa (cümə axşamı və bazar günləri) şəhərləri daxildir.

"Buta Airways" aviaşirkətinin Rusiyaya planlaşdırılan bütün reyslərinə biletlər aviadaşıyıcının akkreditə olunmuş agentliklərində, həmçinin aviaşirkətin rəsmi www.butaairways.az saytında satışdadır.

Rusiyaya səyahət etməyi planlaşdıran bütün sərnişinlərə uçuşdan əvvəl, bu ölkəyə daxil olarkən qüvvədə olan qayda və məhdudiyyətlərlə tanış olmaq tövsiyə olunur. Pandemiya dövründə ölkəyə giriş qaydaları ilə aviaşirkətlərin saytlarında tanış olmaq olar:

**https://www.butaairways.az/az/covid/russia**

Azərbaycana giriş qaydaları haqqında məlumatla aşağıdakı keçid vasitəsilə tanış olmaq olar:

**https://www.butaairways.az/az/covid/azerbaijan.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankında informasiya təhlükəsizliyi sistemlərinin lisenziyalarının 1 il müddətinə uzadılması və dəstəklənməsi xidmətinin satın alınması ilə bağlı 13 aprel 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalı və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 02 iyun 2022-ci il tarixli qərarına əsasən, "SMARTIT" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZİPS) və Ani Ödənişlər Sistemində (AÖS) istifadə olunan Oracle VBİS lisenziyalarının dəstəklənməsi xidmətinin satın alınması ilə bağlı 11 aprel 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalı və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 25 may 2022-ci il tarixli qərarına əsasən, "SİNAM" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# Bu yay rouminqdə "Azercell"in tarifləri ilə ünsiyyətdə sərbəst ol

## Lider mobil operator "Sərbəst 50" və "Sərbəst 75" tarif paketlərinin fakturalı xətt istifadəçilərinə rouminq üçün internet trafik hədiyyə edir

**"Azercell"mobil telekom bazarında bir çox üstünlükləri ilə seçilən Sərbəst paketlərinin istifadəçilərinə indi daha çox imkanlar təqdim edir. Artıq Sərbəsti seçən abunəçilər sərfəli və rahat ünsiyyətdən yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da yararlana biləcəklər.**




İyunun 20-dən sentyabrın 15-dək "Sərbəst 50" və "Sərbəst 75"in fakturalı xətt abunəçiləri ölkədaxili dəqiqə və internetlə yanaşı, rouminq üçün internet trafik də əldə edəcəklər. Belə ki, yay ayları boyunca "Sərbəst 50" tarif paketiçərçivəsində fakturalı xətt istifadəçilərinə ayda 50 AZN-ə 25 GB internet, 2500 ölkədaxili dəqiqə, feysbuk, mesencer və vatsap tətbiqlərində pulsuz yazışma imkanından əlavə, həmçinin 1 GB həcmində rouminq internet paketi də veriləcək. "Sərbəst 75" tarif paketinin abunəçiləri isə ayda 75 AZN ödəməklə 60 GB internet, 4000 ölkədaxili dəqiqə, feysbuk, mesencer və vatsap tətbiqlərində pulsuz yazışma imkanı ilə yanaşı, 2 GB həcmində rouminq internet paketi də əldə edəcəklər. (ətraflı məlumat üçün: **https://www.azercell.com/az/personal/plans-and-services/mobile-tariffs/postpaid.html)**

Sərbəst tarifləri çərçivəsində təqdim edilən əlavə internet trafik "Azercell"in rouminq internet paketləri qüvvədə olan bütün ölkələrdə etibarlıdır. Odur ki, Sərbəst abunəçiləri bonuslarından dünyanın ən çox ziyarət edilən 62 ölkəsində fəaliyyət göstərən 105-dən çox operatorun şəbəkəsində yararlana biləcəklər. Xatırladaq ki, Türkiyə, Rusiya, Avstriya, Belarus, Gürcüstan, İsrail, Qazaxıstan, Ukrayna və Çin kimi populyar istiqamətlərdə rouminq internet paketləri bütün şəbəkələrdə etibarlı olduğundan, "Azercell" abunəçiləri prioritet operatoru seçmək zərurəti olmadan istənilən şəbəkədə internet xidmətindən istifadə edə bilərlər. Lider mobil operator xaricə səfər edən abunəçilərindən **www.azercell.com** rəsmi internet səhifəsindən rouminq zamanı internetdən istifadə qaydaları ilə (ətraflı məlumat üçün: **https://www.azercell.com/az/personal/plans-and-services/roaming/roaming-data-packages.html**) tanış olmağı və ölkə hüdudlarından kənarda nömrəyə göndərilən ismarıcları diqqət mərkəzində saxlamağı xahiş edir.

Bu yay rabitə xərclərinizə Sərbəst tarif paketləri ilə qənaət edin.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC müxtəlif katriclərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC struktur idarələrinə tələb olunan süzgəclərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 05 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC müxtəlif nasosların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC "Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarının transformatordan yuvaları arası kabel xətlərinin çəkilməsi xidmətinin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177

*Tender komissiyası*

"Azərişıq" ASC-nin Yasamal RETSİ Enerji Satış şöbəsinin nəzarətçi-mühəndisi Rza Balakadaş oğlu Zülfüqarovun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi akademik

**ELDAR SALAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi fizika-riyaziyyat elmləri doktoru, akademik

**ELDAR YUNİS OĞLU SALAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Professor Şirindil Alışanlı ailəsi ilə birlikdə akademik

**ELDAR SALAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov və direktor müavini Ədibə İsmayılova Xalq yazıçısı Elçin Əfəndiyevə və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevaya əzizləri

**ELDAR SALAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan-Fransa Ticarət Palatasının İdarə Heyətinin sədri Teyba Quliyevaya anası

**NAİLƏ AĞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6000
Sifariş 1730
Qiyməti 40 qəpik